RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 4 (8320) ŞƏNBƏ, 11 yanvar 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# İlham Əliyevin 106-cı hədiyyəsi

Bir yol var Bakıda... Lökbatan qəsəbəsinin şimal-şərqində. Bir az da dəqiq desək, Lökbatan-Qobu yolunun 3 kilometr şərq hissəsində...
Bu yolun yetişdiyi bir ünvan var - məcburi köçkünlər üçün salınmış "Qobu Park" yaşayış kompleksi... Qarabağ camaatının bir hissəsinin məskunlaşdığı məkan...
Bu yola girən kimi adamı qəribə bir hiss bürüyür. Sanki Qarabağa aparır bu yol... Sanki Qarabağın ürəyi döyünür orda... Axı o ünvanda qarabağlılar yaşayır... Ağdamın, Şuşanın, Zəngilanın, Füzulinin, Kəlbəcərin, Laçının, Xocalının, Cəbrayılın, Qubadlının ruhu, nəfəsi duyulur orda. Bu rayonların özünəxas xüsusiyyətləri, adət-ənənələri, ləhcələri elə öz camaatı tərəfindən qorunur, saxlanılır, yaşadılır orda. 27 ildir öz bölgələrindən didərgin düşsələr də...

Elə kompleksə daxil olan kimi qarabağlıların məkanında olduğun o saat sezilir. Təmiz, səliqəli həyətdə bir yerə yığışan ağsaqqalların, söhbət edən gənclərin, hətta oynayan uşaqların da şirin ləhcəsindən hansı rayondan olduqlarını anlamaq mümkündür. Bir də qonaqpərvərliklərindən... Qarabağ camaatı qonaqpərvərliyi ilə də məşhurdu axı... Biz də bunu nəzərə alaraq, ötən il istifadəyə verilmiş "Qobu Park-2"də yaşayan ailələrin qonağı olmaq, şəraitlərini öz gözlərimizlə görmək qərarına gəldik.

## 4 min ailəyə sevinc

"Qobu Park-2" yaşayış kompleksinin açılışı 2019-cu il oktyabrın 8-də olub. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər. Dövlətimizin qaçqın və məcburi köçkünlərə diqqət və qayğısı daim göz önündədir. 2003-cü ildən bugünədək Prezident İlham Əliyev qaçqınların və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması, onların məşğulluğunun təmin edilməsi ilə bağlı 70-dən çox fərman və sərəncam imzalayıb, bir çox proqramlar qəbul edilib. Dövlət səviyyəsində bu istiqamətdə atılan addımlarla yanaşı, Heydər Əliyev Fondu da fəaliyyətində qaçqın və məcburi köçkünlərin problemlərinin həllinə xüsusi diqqət yetirir. Məcburi köçkünlərin müvəqqəti yaşayış yerləri və çadırlardan müasir tələblər səviyyəsində inşa edilən qəsəbələrə köçürülməsi dövlətin bu insanlara göstərdiyi diqqətin təzahürüdür. Ölkənin müxtəlif yerlərində qaçqın və məcburi köçkünlərin mənzil şəraitinin yaxşılaşdırılması üçün 105 qəsəbə və şəhərcik salınıb. 106-cı isə "Qobu Park-2" yaşayış kompleksidir. Bu kompleksin inşası Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə həyata keçirilib.

"Qobu Park-2" yaşayış kompleksində ümumilikdə onmərtəbəli 13 bina tikilib. Burada məktəb, uşaq bağçası, poliklinika, gimnastika, güləş və trenajor zalları, şahmat mərkəzi, market, iaşə obyektləri yaradılıb. Eyni zamanda, istirahət parkı, uşaq əyləncə meydançası, 3 idman meydançası inşa olunub.

*Ardı 2-ci səh.*

# Ağsu rayonunun Ağsu-Ağarx-Rəhimli-Qaradağ avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Altı min nəfər əhalinin yaşadığı 9 yaşayış məntəqəsini birləşdirən Ağsu-Ağarx-Rəhimli-Qaradağ avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşunun (investisiya xərclərinin) bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 17,4 milyon (on yeddi milyon dörd yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 yanvar 2020-ci il*

# B.V.Məsimovun (Baba Vəziroğlunun) "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan ədəbiyyatının inkişafında xidmətlərinə görə Baba Vəzir oğlu Məsimov (Baba Vəziroğlu) "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 yanvar 2020-ci il*

# AÇG-də neft hasilatı 500 milyon tona çatdı

AÇG-nin ("Azəri-Çıraq-Günəşli") operatoru olan BP şirkəti bu layihədəki tərəfdaşları - SOCAR, "Şevron", "İnpeks", "Ekvinor", "EksonMobil", TPAO, "İtoçu", ONGC Videş Ltd (OVL) adından qürurla bildirir ki, ötən il dekabrın 26-da bu yataqlardan 500 milyonuncu ton neft hasil edilib.

1997-ci ildən etibarən AÇG-dən hasil edilmiş yarım milyard ton neft Bakı yaxınlığındakı Səngəçal terminalından Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac boru kəməri və Qərb İxrac Boru Kəmərinə (QİBK) vurulub, Azərbaycan, Gürcüstan və Türkiyə ərazilərindən keçməklə birbaşa dünya bazarlarına nəql edilib.

***"Azərbaycan"***



# Ölkədə qazlaşdırmanın səviyyəsi 96 faizi ötür

## Hədəf ən çətin relyefli ərazilərə də qaz xətlərinin çəkilməsidir

Son illər uzun müddət təbii qaz almayan yaşayış məntəqələrinin, həmçinin indiyədək qazlaşdırılmayan kənd və qəsəbələrin mavi yanacaqla təmin edilməsi istiqamətində böyük və davamlı işlər aparılıb. Hətta sovet dönəmində qazdan istifadə etmək imkanı olmayan bir sıra yaşayış məntəqələrindəki evlərdə indi mavi alov şölələnir.

Azərbaycanda həyata keçirilən genişmiqyaslı infrastruktur layihələri sırasında qazlaşdırmaya aid olanların da mühüm əhəmiyyəti var. Məhz onların gerçəkləşməsi nəticəsində şəhərlərin, rayon mərkəzlərinin, iri kənd və qəsəbələrin mavi yanacaq problemi tam həll olunmaqla yanaşı, ən ucqar dağ kəndləri də qazla təmin edilib.

Ardıcıl həyata keçirilən layihələr nəticəsində respublikanın Gəncə, Mingəçevir, Naftalan, Sumqayıt və Şirvan şəhərlərində qazlaşdırma tam başa çatıb. Qazlaşdırmanın 100 faiz səviyyəsinə çatdığı rayonlar isə Abşeron, Ağdam, Ağstafa, Balakən, Beyləqan, Biləsuvar, Füzuli, Hacıqabul, Qazax və Ağsudur. Cəbrayıl rayonunun işğaldan azad olunmuş Cocuq Mərcanlı kəndindəki evlərin hamısına qaz xətləri çəkilib. Yevlax, Bərdə, Kürdəmir, Tərtər, Ucar, Goranboy və Zərdab rayonlarında yaşayış məntəqələrinin sayına görə qazlaşdırmanın səviyyəsi 90 faizi ötüb.

*Ardı 4-cü səh.*

◆ **İlin uğurlu yekunları**

# 62 beynəlxalq turnirə evsahibliyi, 243 yarışda iştirak, 271 qızıl medal

## Azərbaycan idmançıları ötən ili möhtəşəm nailiyyətlərlə başa vurdular



İdmançılarımız dünyanın ən mötəbər turnirlərində uğurla çıxış edərək ölkəmizin adını daim uca tuturlar. Atletlərimiz müxtəlif yarışlarda idmanın olimpiya və qeyri-olimpiya növləri üzrə ölkəmizi şərəflə təmsil edərək Azərbaycanın idman şöhrətini artırırlar.

2019-cu ildə idmançılarımız beynəlxalq yarışlarda 775 medal qazanıblar. Medallardan 271-i qızıl, 238-i gümüş, 266-sı bürüncdür. Ölkəmizdə 62 beynəlxalq idman tədbiri keçirilib. Milli komandalarımız 243 beynəlxalq turnirə qatılıb.

Azərbaycanın keçən il "Formula-1" Azərbaycan Qran-prisinə, UEFA Avropa Liqasının finalına, Avropa Gənclərinin XV Yay Olimpiya Festivalına, gimnastika üzrə dünya kubokları uğrunda turnirə və digər mötəbər yarışlara uğurla evsahibliyi etməsi, atletlərimizin beynəlxalq turnirlərdə qazandıqları parlaq qələbələr ölkəmizin idman tarixinə qızıl hərflərlə yazıldı.

### "Minsk-2019": 5 qızıl, 10 gümüş, 13 bürünc medal

Yola saldığımız ildə ən yaddaqalan idman hadisələrindən biri atletlərimizin Belarusun paytaxtı Minskdə keçirilən II Avropa Oyunlarında qazandıqları uğurdur. Qitənin 50 ölkəsindən 4 mindən çox atletin qatıldığı bu möhtəşəm bayramda ən güclülər qalib gəldilər. 9 gün ərzində 15 idman növü üzrə 200 dəst medal uğrunda təşkil olunan yarışlarda Azərbaycan 82 atletlə təmsil olunmuşdu. Komandamızın II Avropa Oyunlarında layiqli nəticə əldə etmək imkanı kifayət qədər yüksək, xüsusilə güləşçilərə, cüdoçulara, karateçilərə ümid böyük idi.

Sevindirici haldır ki, dövlətin idmançılara göstərdiyi daimi diqqət və qayğı özünü "Minsk-2019"da da doğrultdu. Belə ki, Azərbaycan 5-i qızıl, 10-u gümüş, 13-ü bürünc olmaqla 28 medal qazanaraq 50 ölkə arasında ilk onluqda yer tutdu.

Ölkəmizə ilk medalları (2 gümüş, 1 bürünc) akrobatika gimnastlarımız qazandırdılar. Dinamik hərəkətlər üzrə qarışıq cütlüklərin yarışında 28,830 xal toplayan Ruhidil Qurbanlı və Abdulla Əl-Məşayxi gümüş medala sahib olublar. Balans hərəkətləri üzrə qarışıq cütlüklərin yarışında Ruhidil Qurbanlı-Abdulla Əl-Məşayxi cütlüyü 28,160 xalla bürünc medala layiq görülüb.

Bir gün sonra isə akrobatika gimnastlarımız II Avropa Oyunlarında üçüncü medalı qazanıblar.

*Ardı 3-cü səh.*

# Getdikcə gəncləşən qədim Bakı

## *Dövlət başçısının tələbi:* paytaxtda bütün tikinti işləri müasir şəhərsalma tələblərinə uyğun aparılmalıdır

Bakı dünyanın qədim şəhərlərindəndir. Paytaxtımız həm də dünyanın ən gözəl şəhərlərindən biri kimi tanınır. Bakıda qədimliklə müasirlik birləşib. Bir yanda Şərq və Avropa memarlığına söykənən tarixi, digər yanda isə müasir dünya memarlığını özündə əks etdirən binalar paytaxta gözəllik gətirir. Buna görə də ölkəmizə gələn əcnəbi turistlər bir daha gəlmək istəyirlər.

Prezident İlham Əliyev Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə yeni təyin edilən sədri qəbul edərkən son dövrlər şəhərdə görülən işləri yüksək qiymətləndirərək demişdir: "Biz bütün təmir işlərini çox böyük ustalıqla, binaların tarixi görünüşünə xələl gətirmədən aparmışıq. Bu, birinci amildir ki, biz Bakını dünyanın ən gözəl şəhərlərindən birinə çevirmişik və tarixi abidələrimizi bərpa etmişik. İkinci amil müasir binalardır. Bunlar da memarlıq abidələridir. Məsələn, Heydər Əliyev Mərkəzi ən mötəbər mətbu orqanların birində dərc edilən hesabatda dünyanın ən gözəl 10 binasının arasında yer alıb. Mənim fikrimcə, bu, dünyanın ən gözəl binasıdır. Biz təkcə Heydər Əliyev Mərkəzinin timsalında nəinki müasir Bakımızın, Azərbaycanımızın rəmzini görürük. "Alov qüllələri", "Crystal Hall", Xalça Muzeyi, ofis binaları - bütün bunlar Bakının müasir memarlığını təcəssüm etdirir. Əsas vəzifəmiz, - mən bu vəzifəni çox ciddi qoymuşdum, - ondan ibarət idi ki, biz keçmişlə müasirliyin vəhdətini təşkil etməliyik".

*Ardı 2-ci səh.*

# İlham Əliyevin 106-cı hədiyyəsi


















*Əvvəli 1-ci səh.*

Kompleksin ərazisində fəaliyyət göstərəcək 220 yerlik uşaq bağçası lazımi inventarla təchiz edilib. Burada balacaların təlim-tərbiyəsi ilə yüksək səviyyədə məşğul olmaq üçün bütün imkanlar yaradılıb. Bir sözlə, "Qobu Park-2"də sakinlərin sosial məsələlərinin həlli üçün hərtərəfli infrastruktur qurulub.

2018-ci ilin mayında açılışı olan 9 mərtəbəli 11 yaşayış binasından ibarət olan "Qobu Park-1" yaşayış kompleksində 1026 ailə yerləşdirilib. Hazırda tikilməkdə olan, 2020-ci ilin aprel-may aylarında təhvil veriləcək "Qobu Park-3"də isə 1306 ailə məskunlaşacaq. Beləliklə, təqribən 4 minə yaxın məcburi köçkün ailəsi müasir standartlara cavab verən mənzillərlə təmin ediləcək. Bununla yanaşı, "Qobu Park-4"ün də təməli qoyulacaq.

## "Bundan artıq nə istəyə bilərik?!"

Prezidentin məcburi köçkünlərə 106-cı hədiyyəsi 1300 ailəyə sevinc gətirib. Artıq iki aydır bu ailələr yeni evdə yeni həyat yaşayırlar. Uşaqların hay-küyü böyüklərin sevincinə qarışıb. Bu sevincdən Süanverdiyevlər ailəsinə də pay düşüb. Ağdam rayonundan köçkün olan bu ailə 27 illik ağır həyat şəraitindən sonra geniş mənzillə təmin olunub. Xatirə Süanverdiyeva deyir ki, 1992-ci ildən Nərimanov rayonunda yataqxanada məskunlaşmışdılar: "Böyük baş ailəyik, hamımız bir evdə dözülməz şəraitdə qalırdıq. Nəhayət, biz də ağ günə çıxdıq. Bir mənzil bizə, biri də qızımın ailəsinə verilib. Burda vəziyyətimiz əladı. Hər şey gözəl düzəldilib. Nəsə almaq üçün uzaq yerə getmək də lazım deyil. Eləcə düşürsən həyətə, lazım olanı alıb qalxırsan evə. Çox razıyıq. Sağ olsun Prezidentimiz, bizə belə şərait yaradıb".

Evinə baş çəkdiyimiz ikinci ailə də Ağdam rayonundan məcburi köçkündür. Gövhər Əliyeva ərazi bütövlüyümüz uğrunda Qarabağ döyüşlərində şəhid düşmüş Əliyev Kamil Sabir oğlunun anasıdır. Oğlundan söz düşən kimi göz yaşlarını saxlaya bilmir Gövhər ana. Məzarı belə olmayan balasının şəklini sığallayıb ağlayır: "Onun ailəsinə də mən baxırdım. Yoldaşı, iki qızı qalıb yadigar. 8 baş ailə idik evdə. Günəşlidə kafedə qalırdıq. Zülm çəkirdik. Yağış yağanda başımıza damırdı. Rütubətdən ayaqlarım tutuldu, dava-dərmanla yaşayıram. Kamilin ailəsinə Masazırda ev verdilər. Mən də o biri oğlumla bura köçmüşəm. Nəhayət, bu yaşımda belə şəraitli evdə yaşamaq qismətim oldu. Ağdamda şəhərin mərkəzində 5 otaqlı evim vardı... Kaş, müharibə heç olmayaydı, oğullarımız şəhid düşməyəydi, bütün bu əzab-əziyyətlər yaşanmayaydı. Hələ də o ümidlə yaşayıram ki, torpaqlarımız geri alınacaq, qayıdacağıq öz yurdumuza, bütün şəhidlərimiz kimi mənim də balamın ruhu şad olacaq".

Qonaq olduğumuz növbəti ailə Azərbaycanın Milli Qəhrəmanı Əsəd Əsədovun oğlunun ailəsidir. Zəngilan rayonunun Mincivan qəsəbəsindən məcburi köçkün olan Soltan Əsədov 2 aya yaxındır ailəsi ilə birlikdə yeni mənzilə köçüb. Bir qızı, bir oğlu olduğu üçün onlara 3 otaqlı mənzil veriblər: "Əvvəl heç bir şəraitimiz yox idi. O qədər acınacaqlı vəziyyətdə yaşayırdıq ki, heç dilə gətirmək belə istəmirəm. Oğlum dünyaya gələndən sonra ayağı düşərli oldu sanki. Bizə bu kompleksdə üçotaqlı, geniş, gözəl mənzil verdilər. Allaha şükür, burda hər cür şərait yaradılıb. Allah Prezidentimizin ömrünü uzun etsin. Kimin əziyyəti varsa, hamısı sağ olsun. Məktəb, bağça, poliklinika, aptek, mağaza - hər şey bir addımlığımızdadır. Bundan artıq nə istəyə bilərik?! Qalır bircə yaşamaq. Yaşamaq da insanın öz əlindədir. İşləyənə hər yerdə çörək var".

Bu binaların hər mərtəbəsində 5 mənzil yerləşir. Bütün mənzillər tam təmir edilib, istilik sistemi, kombi quraşdırılıb, mətbəx mebeli, soyuducu və qaz sobası ilə təmin olunub. Su, qaz, işıq təchizatı daimidir.

"Qobu Park" yaşayış kompleksi sakinlərinin ictimai nəqliyyat xidmətlərindən istifadəsini təmin etmək məqsədilə iki - 140 və 194 nömrəli müntəzəm marşrut xətti fəaliyyət göstərir. Yaxın vaxtlarda üçüncü marşrut xəttinin də açılacağı gözlənilir.

Kompleksin ərazisində inşa olunan məktəb binasında oktyabr ayından Zəngilan rayon 20 nömrəli tam orta məktəb fəaliyyət göstərir. Məktəbin direktoru Nazim Dünyamalıyev deyir ki, bütün zəruri avadanlıqlarla təchiz edilən binada şagirdlərin yüksək səviyyədə təhsil alması üçün hərtərəfli şərait yaradılıb. Müxtəlif fənn kabinetləri, laboratoriya, idman zalı, yeməkxana var. Hazırda məktəbdə 360-dan çox şagird təhsil alır, 26 müəllim çalışır. Şagirdlərin hamısı, müəllimlərin isə 9 nəfəri "Qobu Park" yaşayış kompleksində məskunlaşan sakinlərdir.

## "O gün olsun belə binalar bütün Qarabağda tikilsin"

Məktəblə tanış olduğumuz müddətdə birinci növbənin dərsləri bitmək üzrə idi. Hava da günəşli olduğu üçün uşaqlar evə getməzdən öncə əyləncə və idman meydançalarında oynayırdılar. Azyaşlı uşaqları isə anaları, nənələri həyətə çıxarmışdılar. Uşaqlar oynadıqları vaxt ərzində yeni qonşular da bir-birilə tanış olur, rayondan, kənddən söhbət edir, əvvəlki köçkünlük şəraitlərindən gileylənir, indiki vəziyyətlərindən razılıq edirdilər. Biz də həmin söhbətə qoşuluruq. Zəngilanın Zərnəli kəndindən olan Roza nənə deyir ki, 26 il Dərnəgüldə yataqxanada çətin şəraitdə yaşayıblar. Burada isə 3 otaqlı mənzillə təmin olunublar: "Allah hökumətə, Prezidentimizə, Mehriban xanıma kömək etsin, ev tikənlər də sağ olsun. Daha əl-ayağımız tər-təmizdi. Rahat, isti ocağımızda oturub ömür sürürük. Amma ürəyimizdə vətən nisgili var. O gün olsun belə binalar Zəngilanda, bütün Qarabağda tikilsin, qayıdıb gedək elobamıza".

Elə ölkə rəhbəri İlham Əliyev də kompleksin açılışı zamanı çıxışında demişdi ki, əsas məsələ bu gün hələ də işğal altında olan torpaqlar azad ediləndən sonra orada yeni binaların, kəndlərin, şəhərlərin salınmasıdır: "Bunu da biz edəcəyik, necə ki, vaxtilə işğal altında olmuş Dağlıq Qarabağ Muxtar Vilayətinin inzibati ərazisində yerləşən Şıxarx qəsəbəsində bu gün gözəl bir şəhərcik salınıb. Orada da 1000-dən çox ailə məskunlaşıb. Aprel döyüşləri nəticəsində azad edilmiş torpaqlarda yeni qəsəbə salınıb - Cocuq Mərcanlı qəsəbəsi, hansı ki, bu gün Azərbaycan xalqının əyilməz ruhunun, iradəsinin təcəssümüdür... Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir. Bizim ərazi bütövlüyümüz bütün dünya tərəfindən tanınır və biz ardıcıl olaraq bu istiqamətdə öz siyasətimizi aparırıq. Ərazi bütövlüyümüzlə bağlı heç bir kompromisdən söhbət gedə bilməz. Bu, danışıqlar mövzusu deyil və olmayacaq. Daha da güclü olmalıyıq və güclənirik. Həm iqtisadi gücümüz artır, eyni zamanda, vətəndaşlarımızın əyilməz iradəsi, öz yurdundan didərgin salınan soydaşlarımızın əzmi torpaqlarımızın azad olunacağı günü yaxınlaşdırır".

Bəli, illərdir yaşamağa məcbur olduqları zillətdən qurtulub, hər bir şəraiti olan müasir mənzillərə köçdükləri üçün bu gün onların üzü gülür. Amma bu sevinc belə, daim ürəklərində gəzdirdikləri, gözlərindən oxunan yurd həsrətini, vətən nisgilini ovuda bilmir... Burada hər gün yeni tanışlıqlar baş verir. Kimsə öz yerlisini, kimsə öz ellisini, kəndlisini tapır...

Bu böyük qonşuluq onsuz da unudulmayan Qarabağla bağlı söhbətləri, xatirələri daha da artırır. Burada hər gün mütləq hansısa rayon, hansısa kənd, lap elə küçə, döngə yada düşür... Qarabağın geri alınması üçün yollar müzakirə edilir...

Burada Qarabağın hər bölgəsinin özünəxas xüsusiyyətləri, adət-ənənələri, şirin ləhcələri yaşayır, yaşadılır. Uşaqlar da bu ab-havada, bu ruhda böyüyürlər...

Burada Qarabağın ruhu, nəfəsi duyulur... Qarabağlılar getdikcə daha da çoxalır, bir araya gəlir, birləşir, birlik olur...

Burada - minlərlə Qarabağ camaatının məskunlaşdığı bu məkanda Qarabağın ürəyi döyünür... Və bəlkə bizi Qarabağa aparan yol da elə bu məkandan keçir...

*Qarabağa aparan yol*
*Hey qoruyur ürəyində*
*Bir arzunu, xoş niyyəti*
*Bir-bir evə ötürəcək.*
*Geri dönən bu milləti...*
*Hicran dağlar ürəyini bu yolun*
*Düşmən sıxıb biləyini bu yolun.*
*Ulu Tanrı, ətəyindən tuturuq.*
*Yerə salma diləyini bu yolun...*

**_Xəyalə MURADLI,_**
**_Ağaəli MƏMMƏDOV (foto),_**
**_"Azərbaycan"_**

# Getdikcə gəncləşən qədim Bakı

## *Dövlət başçısının tələbi:* paytaxtda bütün tikinti işləri müasir şəhərsalma tələblərinə uyğun aparılmalıdır



*Əvvəli 1-ci səh.*

Dövlət başçısı, həmçinin vurğuladı ki, paytaxtda bundan sonra bütün inşaat işləri baş plana uyğun aparılmalıdır. Bakıda baş plana uyğun olmayan heç bir bina tikilməməlidir. Bu məqsədlə Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə böyük səlahiyyətlər verilib. İndi əvvəlki kimi bu komitənin razılığı olmadan heç yerdə heç nə tikilə bilməz. Qanunvericilik yolu ilə bu səlahiyyət komitəyə verilib. Prezident, həmçinin tapşırdı ki, bütün yerli icra orqanları Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin rəyi olmadan tikinti aparılmasına razılıq verə bilməz.

Qəbul zamanı Prezident onu da bildirdi ki, son dövrlər Bakı şəhərinin simasının dəyişməsi istiqamətində çox işlər görülüb. Bunlardan biri "Sovetski" adlanan köhnə yaşayış yerinin abadlaşdırılmasıdır. Burada bir-birinin içində tikilən köhnə, yöndəmsiz, ekoloji baxımdan mənfi təsir göstərən binaların demək olar ki, hamısı söküllüb. Bu proses həyata keçirilərkən vətəndaşların maraqları da nəzərə alınıb. Həmin sakinlərin bəzilərinə evlər, bəzilərinə isə pul kompensasiyası verilib.

Bu gün həmin ərazi abadlaşaraq Bakı sakinlərinin gözəl istirahət məkanlarından birinə çevrilib.

Ərazidə olan Mərkəzi park bu gün dünyanın ən gözəl parklarından biridir. Parkın tikintisi şəhərin havasının təmizlənməsinə, insanların istirahətinə, şəhərin estetik cəhətdən gözəl görünməsinə şərait yaradır. Hazırda bu park paytaxt sakinləri ilə yanaşı, Bakıya gələn turistlərin də sevimli məkanlarından biridir.

Dövlət başçısı ziyalılarla görüşündə Memarlar ittifaqı tərəfindən verilən təklifi bir daha xatırladaraq Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədrinə tapşırdı ki, Memarlar ittifaqı ilə birlikdə Bakının mərkəzi rayonunun formalaşması istiqamətində müvafiq təkliflər verilsin. Bunun üçün komitə ilə Bakı Şəhər İcra Hakimiyyəti və Memarlar İttifaqı birlikdə yeni təkliflər planı hazırlayıb təqdim etməlidir. Prezident bu təklifləri dəstəkləyəcəyini bildirdi. Çünki belə olan halda mərkəzi rayonda bu rayona uyğun xüsusi mühafizə tədbirləri görülə və memarlıq abidələrimizə diqqət daha da yüksək ola bilər.

Prezident paytaxtın ekologiyasının saflaşdırılmasına xüsusi əhəmiyyət verdiyini bildirdi. Qeyd etdi ki, Bakı çar Rusiyası və sovet dövründə sənaye şəhəri kimi formalaşıb. Təbii ki, sənayenin genişmiqyaslı inkişafı şəhərimizin ekoloji vəziyyətinə çox mənfi təsir göstərib. Dövlət başçısı bu dövrdə baş verən neqativ halları aradan qaldırmaq üçün bir neçə il bundan əvvəl Bakıda genişmiqyaslı yenidənqurma və abadlıq işlərinin başlanmasına start verildiyini bildirdi. Buna görə Bakının ekologiyasını böyük dərəcədə çirkləndirən yerlər və müəssisələr ləğv edildi. Onların yerində müasir, şəhərsalma qaydalarına uyğun ictimai zonalar yaradılır. Məqsəd Bakını parklar və bağlar şəhərinə çevirməkdir.

Dövlət başçısı şəhərin ekologiyasının yaxşılaşdırılması istiqamətində görülən işlərdən danışarkən Bibiheybət buxtasının və ətrafının neftdən təmizlənməsi, burada olan gölməçələrin qurudulması, park zonasının salınması, idman şəhərciyinin, o cümlədən Su İdman Sarayı və digər infrastrukturun yaradılmasını qeyd etdi. Eyni zamanda tarixə Qara şəhər kimi düşən ərazidə görülən abadlıq işləri və burada salınan park və tikilən müasir binalardan da söz açdı. Bu gün Qara şəhər tarixə qovuşaraq yerini Ağ şəhərə verib. Beləliklə, Bakının ekoloji cəhətdən fəlakət səviyyəsinə çatan bir ərazisi indi paytaxtımızın ən gözəl yerlərindən birinə çevrilib.

**_Rüstəm KAMAL,_**
**_"Azərbaycan"_**

İlin uğurlu yekunları




# 62 beynəlxalq turnirə evsahibliyi, 243 yarışda iştirak, 271 qızıl medal

## Azərbaycan idmançıları ötən ili möhtəşəm nailiyyətlərlə başa vurdular

*Əvvəli 1-ci səh.*

Akrobatika gimnastikası yarışında təmsilçilərimiz Ruhidil Qurbanlı-Abdulla Əl-Məşayxi cütlüyü qarışıq hərəkətlər üzrə qarışıq komandaların yarışında 29,540 xal toplayaraq oyunların gümüş medalına sahib olub.

Cüdoçularımız II Avropa Oyunlarını bir gümüş və dörd bürünc medalla başa vurublar. "Minsk-2019"da Azərbaycan yığmasının bayraqdarı olan Rüstəm Orucov gümüş, Hidayət Heydərov, Məmmədəli Mehdiyev, Elmar Qasımov və İrina Kindzerska bürünc medallara layiq görülüblər.

İdmansevərlərin böyük maraqla və həyəcanla medallar gözlədiyi idman növləri sırasında güləş xüsusi yer tuturdu. Azərbaycan güləşçiləri "Minsk-2019"u ümumilikdə 10 medalla başa vurdular. Onlardan 3-ü qızıl, 3-ü gümüş, 4-ü bürünc olub. Mahir Əmiraslanov, Hacı Əliyev və Mariya Stadnik qızıl, Nurməhəmməd Hacıyev, İslam Abbasov və Elmira Qəmbərova gümüş, Hacımurad Hacıyev, Camaləddin Məhəmmədov, Sabah Şəriəti və Alyona Kolesnik bürünc medal qazanıblar.

"Minsk-2019"da karateçilərimiz də onlara göstərilən etimadı doğrultmağa çalışdılar. Onlar II Avropa Oyunlarında 5 medal (1 qızıl, 3 gümüş, 1 bürünc ) qazandılar. Ölkəmizə bu idman növündə qızıl medalı +84 kq çəki dərəcəsində kumite yarışında Asiman Qurbanlı qazandırıb. Rafael Ağayev, Firdovsi Fərzəliyev və İrina Zaretska "Minsk-2019"u gümüş, Roman Heydərov isə bürünc medalla başa vurublar.

Boks yarışlarında idmançılarımız ölkəmizin hesabına 2 medal (1 qızıl və 1 bürünc) yazdırıblar. Təmsilçimiz Alfonso Dominges II Avropa Oyunlarının qalibi olub. Lorentso Sotomayor isə "Minsk-2019"u bürünc medalla başa vurub.

II Avropa Oyunlarında sambo yarışlarında ölkəmiz 3 medal qazanıb (bir gümüş, iki bürünc). Ağasif Səmədov gümüş, Mehman Xəlilov və Emil Həsənov bürünc medala layiq görülüblər.

### Sürət paytaxtı

Keçən il Azərbaycan bir sıra nüfuzlu turnirlərə evsahibliyi edib. Bunların sırasında planetin bir nömrəli avtomobil yarışı - "Formula-1" Azərbaycan Qran-prisi xüsusi yer tutur. Aprelin 26-28-də dördüncü dəfə Bakıda keçirilən "Formula-1" dünya çempionatının 4-cü mərhələsi olan Azərbaycan Qran-prisində ən məşhur 20 pilot 10 komandanın tərkibində 6 kilometr məsafədən ibarət 51 dövrəlik mərhələnin qalibi uğrunda yarışdı. 500 milyondan artıq tamaşaçı kütləsinə malik yarışı 67 ölkədən çoxlu sayda azarkeş paytaxtımızda tribunalardan izlədi.

Pilotlar ümumi məsafəsi 306 kilometr və 20 çətin döngəsi olan trekdə 51 dövrə vurdular. Trekin ən geniş yerinin eni 13 metr, ən dar hissəsinin eni İçəri şəhər ətrafında, o cümlədən 7-ci və 8-ci döngələrdə 7,6 metr təşkil edirdi. 30 mindən çox tamaşaçının yarışları yerində izləməsi üçün hər cür şərait yaradılmışdı.

Maraqlı və gərgin keçən yarışın yekununda "Mercedes" komandasının üzvü Valtteri Bottas 1 saat 31 dəqiqə 52,942 saniyəlik nəticə ilə "Formula-1" SOCAR Azərbaycan Qran-prisinin qalibi oldu. İkinci yeri "Mercedes" komandasının digər üzvü Luis Hamilton, üçüncü yeri isə "Ferrari" komandasının sürücüsü Sebastian Fettel tutdular.













### Gimnastika üçün daha bir uğurlu il

Ötən il gimnastikada uğurlu nəticələr əldə edilib. Gimnastika növləri üzrə yığma komandalarımız beynəlxalq yarışlarda ötən il 32-si qızıl, 33-ü gümüş və 39-u bürünc olmaqla 104 medal qazanıblar. Milli Gimnastika Arenası 2019-cu ildə 8 beynəlxalq yarışa evsahibliyi edib. Yarışlara ənənəvi dünya kubokları ilə start verilib. Fevralda batut gimnastikası, mart ayında idman gimnastikası və apreldə təşkil edilmiş bədii gimnastika üzrə dünya kuboklarında iştirak etmək üçün ümumilikdə 1020-dən çox insan ölkəmizə səfər edib. Bundan əlavə, ötən ilin aprelində həm də gənclər arasında bədii gimnastika üzrə ikinci "AGF Junior Trophy" adlı beynəlxalq turnir keçirilib. Bu yarışın sonuncu günündə qrup hərəkətlərində komandamız qızıl medal qazanıb və himnimizi səsləndirib.

Ötən ilin may ayında Azərbaycanda ilk dəfə gimnastikanın iki növü üzrə birgə Avropa çempionatı təşkil edilib. Bədii gimnastika üzrə qitə birinciliyi ölkəmizdə dördüncü dəfə təşkil olunsa da, aerobika gimnastikası üzrə Avropa çempionatına ölkəmiz ilk dəfə evsahibliyi edib. Hər iki növ üzrə yarışlara 500-dən çox gimnast qatılıb.

Milli Gimnastika Arenasında keçirilmiş növbəti turnir XV Avropa Gənclər Olimpiya Festivalı çərçivəsində kişi və qadınların idman gimnastikası üzrə yarışları olub. "Bakı 2019"da 38 ölkədən 170 idmançı qüvvəsini sınayıb. Ölkəmizdə təşkil edilmiş ən genişmiqyaslı gimnastika tədbiri - "Tokio 2020" Yay Olimpiya Oyunlarına lisenziya xarakterli bədii gimnastika üzrə dünya çempionatı sentyabrda olub. Azərbaycanda ikinci dəfə keçirilmiş bu çempionatda bədii gimnastika üzrə qrup hərəkətlərində komandamız çoxdan gözlənilən nəticəni - "Tokio 2020"yə lisenziya qazanıb. Olimpiadaya daha bir vəsiqəni isə Zöhrə Ağamirova əldə edib.

Bədii gimnastlarımızın uğurundan sonra Olimpiya oyunlarına daha iki lisenziyanı idman gimnastlarımız qazanıblar. Almaniyanın Ştutqart şəhərində keçirilmiş dünya çempionatında idman gimnastlarımız Marina Nekrasova və İvan Tixonov çoxnövçülük üzrə təsnifat mərhələlərində yetərli xal toplayaraq, Olimpiya oyunlarına vəsiqəni təmin ediblər. M.Nekrasovanın əldə etdiyi lisenziya Azərbaycanın qadın idman gimnastikası tarixində ilk Olimpiya lisenziyasıdır.

Bütün bunlarla yanaşı, AGF tərəfindən ötən il müxtəlif gimnastika növləri üzrə məşqçilik və hakimlik kursları təşkil edilib. Kişi idman gimnastikası üzrə ikinci, batut gimnastikası üzrə birinci, aerobika gimnastikası üzrə ikinci dərəcəyə aid FIG Akademiyasının məşqçilik kursları, eləcə də bədii gimnastika və "TeamGym" növü üzrə yerli mütəxəssislər üçün məşqçilik və hakimlik kursları təşkil edilib.

### Şahmat üzrə dünya kubokunun ilk azərbaycanlı qalibi

Ötən ilin ən yaddaqalan idman hadisələrindən biri də beynəlxalq qrossmeyster Teymur Rəcəbovun Rusiya Federasiyasının Xantı-Mansiysk şəhərində keçirilən şahmat üzrə dünya kuboku yarışının qalibi olmasıdır. Dünya reytinqinin ilk üçlüyündə yer almış çinli qrossmeyster Dinq Lirenlə final qarşılaşmasında kubokun sahibini müəyyənləşdirmək üçün on görüş keçirilib. Klassik partiyalarda və rapiddə heç-heçə qeydə alınıb, blitsdə isə Teymur Rəcəbov həm ağ, həm də qara fiqurlarla qarşılaşmalarda üstün olub və görüşü 6:4 hesablı qələbə ilə başa çatdırıb.

Dünya kubokuna aparan yolda Teymurun birinci mərhələdə rəqibi Farer adalarının təmsilçisi Helqi Ziska idi. Rəqibini asanlıqla məğlub edən qrossmeysterimiz sonrakı raundlarda rusiyalı şahmatçılar Sənan Syugirov və Daniil Yuffadan üstün olub. Teymur finala vəsiqə qazanmaqla yanaşı, iddiaçılar turnirinə qatılmaq hüququnu da əldə edib. Mötəbər yarışda qalib gələn şahmatçımız bu uğuru ilə həm də ilk azərbaycanlı kimi ölkə idmanının da tarixinə düşüb.

### Bakı gələcəyin idman ulduzlarının zəfər meydanı oldu

2019-cu ilin iyul ayında Bakıda təşkil olunan XV Avropa Gənclər Yay Olimpiya Festivalı gələcəyin idman ulduzlarının növbəti zəfər meydanı oldu. Bir həftə davam edən yarışlarda 48 ölkəni təmsil edən 3600-dən çox idmançı qalib adı uğrunda mübarizə apardı. Azərbaycan komandası Avropanın Rusiya, Böyük Britaniya və Türkiyə istisna olmaqla, bütün ölkələrini, o cümlədən Fransa, Almaniya, İtaliya, Ukrayna, İspaniya, Çexiya, Hollandiya, Belarus, İsveçrə, Avstriya və digərlərini qabaqlayaraq festivalda 23 medal qazanmış və ümumi komanda hesabında 4-cü olmuşdur. Medallardan 10-u qızıl, 7-si gümüş, 6-sı bürüncdür.

Azərbaycan komandasının üzvləri 10 idman növü üzrə keçirilmiş yarışların 3-də medallar əldə ediblər. Sözsüz ki, bütün turnirlərdə medal gözlənilən idman növləri sırasında güləş xüsusi yer tutur. Pəhləvanlarımız bu dəfə də ənənələrinə sadiq qalaraq yarışlarda ümumilikdə 16 medal (8 qızıl, 5 gümüş, 3 bürünc) əldə edərək tarixi qələbəyə imza atdılar. Bununla da 13 ölkə arasında ilk pillədə yer aldılar. Pəhləvanlarımızla yanaşı, medal estafetini cüdoçularımız da davam etdirməklə 3 yarış günündə 2 qızıl, 1 gümüş və 3 bürünc medal qazanıblar.

Gimnastika yarışlarında isə Azərbaycan atleti Səməd Məmmədli XV Avropa Gənclər Yay Olimpiya Festivalının idman gimnastikası yarışlarında gümüş medal qazanıb.

### Bakıda London derbisi

Ötən il mayın 29-da Azərbaycan daha bir əlamətdar idman hadisəsinin şahidi oldu. Paytaxtımız Avropanın nüfuzlu klub turnirlərindən UEFA Avropa Liqasının finalına evsahibliyi etdi. Həlledici qarşılaşmada İngiltərənin iki komandası - "Çelsi" və "Arsenal" üz-üzə gəldilər. Başqa sözlə, Bakıda London derbisi oynanıldı. Paytaxtımızda əsl futbol bayramı yaşandı. Finalın təşkili Avropadan Bakıya gələn media təmsilçiləri, hər iki klubun azarkeşləri arasında böyük rəğbətlə qarşılandı, UEFA rəhbərliyinin qəlbində xoş hisslər oyatdı. Yekunda 4:1 hesabı ilə qələbə qazanan "Çelsi" UEFA Avropa Liqasının 2018-2019-cu il mövsümünün qalibi oldu.

Müxtəlif ölkələrin media orqanları final matçının təşkilini və gedişini şərh edərək komandaların və onların rəhbərlərinin, futbol mütəxəssislərinin rəylərini öyrəndilər. Mütəxəssislərin ümumi fikri belə oldu ki, Bakının evsahibliyi etdiyi Avroliqanın finalı ən yüksək səviyyədə təşkil edildi, komandaların ədalətli mübarizəsi üçün hər cür şərait yaradıldı, möhtəşəm qarşılaşmaya evsahibliyi edən Azərbaycan hər cür təqdirə layiqdir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Azərbaycan Qafqazda sülhün, Ermənistan isə müharibənin carçısıdır

2019-cu il Qafqaz dövlətlərinin tarixində ən mühüm siyasi müəmmaların durulub süzgəcdən keçməsi ilə yadda qalacaq. İl ərzində baş verən hadisələri Qafqazın siyasi müstəvisində xronoloji ardıcıllıqla nəzərdən keçirəndə Azərbaycanda və Ermənistanda baş verən siyasi prosesləri, beynəlxalq münasibətlərin inkişafı istiqamətində və əksinə atılan addımları nəzərdən keçirəndə bir medalın hər iki üzü aşkarlanır, kimin kim olduğunu üzə çıxarmağa imkan yaranır, Qafqazda hansı dövlətin münaqişələrə və müharibələrə, hansının sabitliyə və sülhə sədaqətini görə bilirik.

Bu iki dövlətin mahiyyətini, məram və məqsədlərini üzə çıxarmaq üçün nə dərin tarixi araşdırmalara, nə də məxfi arxiv sənədlərinə istinad etmədən bu ilin siyasi hadisələrinin fövqündə mövqelərini kifayət qədər aydın görmək mümkündür. Tarix nadir hallarda belə unikal imkan yaradır və bu məqamı nəzərdən keçirməmək, ondan faydalanmamaq səhv olardı. Azərbaycan Prezidentinin beynəlxalq münasibətlərin inkişafı istiqamətində atdığı addımlar "demokrat" qiyafəsində dünyəvi dəyərlərə sədaqət andı içən Ermənistan liderinin bəyanatları ilə müqayisə zamanı kimin kim olduğu üzə çıxır.

Azərbaycan xarici siyasətlə bağlı olan məsələlərin demək olar ki, hamısında böyük uğurlara imza atıb. Dövlət başçısı Azərbaycan mətbuat nümayəndələrinin bir qrupuna verdiyi müsahibədə bu amilləri bir-bir sadalayıb. Onlardan bir neçəsini qeyd edək. Ənənəvi tərəfdaşlarımızla əlaqələr yeni və daha yüksək mərhələyə qədəm qoymuşdur. Bir çox birgə təşəbbüslər irəli sürülmüş, sülhə və əməkdaşlığa xidmət edən önəmli razılaşmalar əldə edilmişdir. Bütün beynəlxalq münasibətlər qarşılıqlı anlaşma, qarşılıqlı hörmət və bir-birinin işinə qarışmama prinsipləri üzərində qurulmuşdur. İndi Azərbaycanın təşəbbüsü ilə qonşu ölkələrlə üçtərəfli əməkdaşlıq formatları yaradılır. Bu il 40-dan çox dövlət və hökumət başçısı beynəlxalq tədbirlərdə iştirak etmək üçün Azərbaycana gəlmişdir. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə Görüşü və Qoşulmama Hərəkatının Zirvə Görüşü kimi mühüm tədbirlərə Bakı evsahibliyi etmişdir. Azərbaycan BMT-dən sonra ikinci böyük beynəlxalq təsisata 120 ölkənin yekdil qərarı ilə 3 il ərzində sədrlik edəcək. Qoşulmama Hərəkatında birləşən ölkələrin bu taleyüklü qərarı bütün dövlətlərin Azərbaycana bəslədikləri hörmətdən və dərin inamdan irəli gəlir. Bu mötəbər qurum əmindir ki, Azərbaycanın sədrliyi dövründə təşkilatın nüfuzu artacaq, dövlətimiz yeni sülh təşəbbüsləri ilə çıxış edəcək. Ölkəmiz həmçinin Avropa İttifaqı ilə əlaqələrini xeyli dərinləşdirmiş, o cümlədən Avropa İttifaqı Şurasının prezidenti Tusk ölkəmizə səfər etmişdir. Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanan sənədlərdə ölkəmizin ərazi bütövlüyü, suverenliyi, sərhədlərimizin toxunulmazlığına Avropa İttifaqı tərəfindən tam dəstək verilir. Qoşulmama Hərəkatının Yekun Bəyannaməsində də Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ərazi bütövlüyü prinsipləri əsasında həll olunması birmənalı şəkildə ifadə edilir. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası da Yekun Bəyannaməsində bu mövqedən çıxış edir. Bir sözlə, 150-yə yaxın ölkə, eyni zamanda, türkdilli ölkələrin mütləq əksəriyyəti Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində bizim mövqeyimizi dəstəkləyirlər.

Artıq bu gün Azərbaycan sülhə, əmin-amanlığa xidmət edən, müstəqilliyini qoruya bilən dövlət imicini qazanmış, Bakı isə Şərqin Cenevrəsinə çevrilmişdir. Azərbaycan sabitliyə, sülhə və əmin-amanlığa sadiqliyini bütün tədbirlərdə eyni qaydada inamla bəyan edir, atdığı bütün diplomatik addımlar qarşılıqlı əlaqələrin inkişafına, neytrallığının qorunmasına yönəlir. Artıq neçə ildir ki, Rusiya və NATO hərbi rəhbərlərinin yüksəksəviyyəli nümayəndələrinin görüşü də Bakıda keçirilir. Yerevan isə keçirilən beynəlxalq forumların, dünya əhəmiyyətli tədbirlərin sayına görə Bakı ilə müqayisədə perspektivsiz şəhərdir. Azərbaycan Qafqazda sülhün, Ermənistan isə müharibələrin və münaqişələrin carçısıdır.

İlin ən mühüm hadisələrindən biri postsovet məkanındakı respublikaların İkinci Dünya müharibəsində alman faşizmi üzərində qələbənin 75 illik yubileyinə gedən hazırlıqla bağlıdır. Hazırlıq ərəfəsində Azərbaycanla Ermənistan bu məsələyə fərqli münasibətlər sergilədilər. Alman faşizmi üzərində qələbə bütün bəşəriyyət və xüsusən də postsovet məkanında yaşayan xalqların hamısının həyatında böyük məna kəsb edir. Buna görə də rəsmi bəyanatlarda müharibənin tarixi nəticələri və keçmiş Sovet İttifaqının qələbənin əldə edilməsində əsas rolu haqqında fikir ayrılığı yoxdur. Eyni zamanda, faşistlərin qəhrəmanlaşdırılmasının yolverilməzliyi ilə bağlı fikirlər də üst-üstə düşür. Bu sırada ölkəmiz də istisna deyil. Lakin əsrlər boyu Rusiyaya sədaqət andı içən Ermənistan dolayısı da olsa şimal qonşusuna diş qıcadı, alman faşizminin əlaltılarına və bütünlükdə faşist ideologiyasına görünməmiş bir sevgi nümayiş etdirdi.

Azərbaycan ictimaiyyəti, o cümlədən veteranlar MDB dövlət başçılarına və parlamentlərinə Ermənistanda faşist Njdeyə abidənin ucaldılması ilə bağlı müraciətlər etdilər. MDB Zirvə görüşündə Azərbaycan Prezidenti bu məsələni qaldırmaqla baş nazir Paşinyana bir növ imkan verdi ki, bu abidənin ucaldılmasında iştirakı olmayan siyasi lider kimi üstünə düşə biləcək ləkəni yusun. Paşinyan isə qeyri-adekvat bəyanatlarla Njdeyə bəraət qazandırdı, onu Soljenitsınlə müqayisə etdi. Hələ bu azmış kimi o, başqa bir tədbirdə - Rusiyadan gəlmiş jurnalistlərlə görüşdə Njdeni Molotovla müqayisə etdi. Azərbaycan Prezidenti Paşinyanın bu addımını şərh etməyə söz tapmadığını bildirdi: "Çünki bu, o dərəcədə aşağı səviyyəli fərziyyədir ki, bunu şərh etmək mümkün deyil. Molotov Sovet İttifaqının Xarici İşlər naziri idi. Molotov-Ribbentrop paktı 1939-cu ildə bağlanmışdı, ona görə ki, Sovet İttifaqı müharibəyə hazır deyildi və bu müqavilə gözlənilən müharibənin qarşısını almaq üçün imzalanmışdı. Molotov Njde kimi Hitlerə qulluq etmirdi. Molotov Njde kimi faşist şüarları səsləndirmirdi. Njdenin məşhur şüarı o idi ki, "Almaniya uğrunda ölən Ermənistan uğrunda ölür". Yəni o, faşistdir və bunu İkinci Dünya müharibəsi zamanı demişdir".

Zaman dəyişir, Ermənistanda "demokratik" liderlər bir-birini əvəz edir, amma qatı millətçi ideologiya dəyişmir. Artıq III minilliyin ikinci onilliyi arxada qalır, lakin Ermənistan müharibə ritorikasından, faşist ideologiyasından əl çəkmək niyyətində deyil. Niyə özlərini demokrat elan edənlər Yerevanda Njdenin heykəlinə baş əyir, zavallı erməni xalqını faşist ideologiyasının quluna çevirirlər? Əsrdən artıqdır ki, qonşu ölkədə faşizmin kabusu dolaşır. Elə bu illər ərzində Azərbaycan sülhə və dünyanın demokratik dəyərlərinə, Ermənistan isə qatı millətçi faşist ənənələrinə sədaqətini qoruyur. Qafqazda sülhün bərqərar olması üçün bizdən tələb edilən əsassız kompromislərdən daha çox bu ölkədə demokratiyanın bərqərar olması vacibdir. Buna görə də bəşəriyyət bu ölkədə kök salan qatı millətçi ideologiyanı əvvəl etiraf etməli, sonra onun aradan qaldırılmasının yollarını düşünməlidir.

Məsələ burasındadır ki, ermənilərin nasist Almaniyası ilə əməkdaşlığı ötən əsrin əvvəllərinə gedib çıxır. Hələ 1918-ci ildə Tiflisdə erməni-alman ittifaqı yaradılır. Eduard Abramyan 2006-cı ildə "Abverdə qafqazlılar" kitabında bu hərəkatı malalayıb ona mədəni-maarifçi xarakteri verməyə cəhd edir. Tarixçilərə həmçinin erməni millətçilərinin "Azq" qrupunun da Almaniya ilə əməkdaşlığı bəllidir. Sonralar Berlində, Münhendə, Buxarestdə və Sofiyada erməni gənclərin faşist və nasist təşkilatları yaradılır. Bolqarıstanda və Rumıniyada Njdenin 1934-cü ildə əvvəl ABŞ-da, sonralar Avropa ölkələrində yaratdığı "Tseqakron" təşkilatının erməni millətçi üzvlərindən ibarət olan qrupları təsis edilir. Bu təşkilatın bəzi bölmələri sonralar Abverin xüsusi hissələrinin tərkibinə daxil olur. 1942-ci ilin dekabrında Dronun dəstəyi ilə erməni milli şurası yaradılır və bu qurum erməni milli komitəsinə çevrilərək erməni milli ideologiysı üzərində işləyir. 1944-cü ilin sonunadək Hebbelsin idarəsində erməni legionerləri üçün erməni və alman dillərində "Hayastan" ("Armenien") həftəlik nəşrlər dərc edilir. Hebbelsin əlinin altında radioverilişlərdə erməni diktorları alman, fransız, rus və erməni dillərində çıxışlar edirdilər. 1944-cü ilin fevralında işğal edilmiş şərq ərazilərinin naziri Alfred Rozenberqin əmri ilə Birləşmiş erməni qərargahı yaradılır və Vartan Sarkisyan bu quruma rəhbər təyin edilir. Bu struktur Vermaxtın və Abverin bütün erməni hərbi və kəşfiyyat birləşmələrinin fəaliyyətini idarə edir. Bütün bunlardan sona Njdeni müdafiə etmək, onun ideologiyasını müasir Ermənistana zorla sırımaq yolverilləndirmi? Beləliklə, bu dövlətin xarici siyasətində qabaran əsas amil Qafqazda müharibələrin körüklənməsinə, Rusiya ilə Türkiyə və digər bütün dövlətlər arasında münasibətlərin gərginləşməsinə və regionda müharibə ocaqlarının artmasına göstərilən cəhdlərdir.

Prezident İlham Əliyevin təkcə bu il beynəlxalq münasibətlərin tənzimlənməsi istiqamətində atdığı addımlar və göstərdiyi dimlomatik səylər zamanın aynasında Azərbaycan dövlətinin sülhü müqəddəs amal kimi qoruyan surətini cızır. Yazının əvvəlində dediyimiz kimi, bu, medalın bir üzüdür. O biri üzündə isə "zavallı xalq"a mərsiyə deyərək ərazi iddialarından əl çəkməyən, bütün dünyada türklərə və azərbaycanlılara nifrət aşılayan, qatı millətçi nasist ideologiyasından ikiəlli yapışan Ermənistan rəhbərliyinin aqressiv siyasi kursu dayanır.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Ermənistan ordusunun bölmələri atəşkəs rejimini 22 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Quşçu Ayrım kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Şıxlar, Yusifcanlı, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# *Yeni nəşr:* "İctimai və humanitar elmlərin, efir məkanının problemləri haqqında düşüncələr"

"İndi cəmiyyətimiz qarşısında, ilk növbədə, elmi elita qarşısında mühüm vəzifələrin həlli məsələsi dayanır. Əsas məqsədimiz ondan ibarətdir ki, yaxın illərdə təhsildə, elmdə, ümumən intellektual sahələrdə ciddi dönüş yaradılmalı və biliklərə əsaslanan iqtisadiyyatın qurulması prosesi intensivləşməlidir".




AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Ramiz Mehdiyevin Azərbaycan və rus dillərində yenicə çapdan çıxmış "İctimai və humanitar elmlərin, efir məkanının problemləri haqqında düşüncələr" kitabında yer alıb. Kitab iki aktual mövzudan bəhs edir: "İctimai və humanitar elmlər: zaman kontekstində baxış", "Azərbaycanın efir məkanı: problemlər və vəzifələr".

Bu gün Azərbaycan dövlətinin çox uğurlu sosial-iqtisadi siyasət həyata keçirdiyini, yeniləşmə prosesinin ölkə həyatının bütün sahələrini əhatə etdiyini, o cümlədən elmin inkişafı istiqamətində Prezident İlham Əliyev tərəfindən mühüm qərarlar qəbul edildiyini vurğulayan müəllif elmi elitanın həyata keçirəcəyi strateji planların mahiyyətini açıqlayaraq aktual istiqamətləri diqqətə çatdırıb. Akademik yazır: "Bu gün dünya Azərbaycanı yenidən kəşf edir. Ölkəmizə olan bu diqqət və marağın əsasında Prezident İlham Əliyevin fədakar əməyi dayanır. Artıq politoloji tədqiqatlarda "Azərbaycan modeli" haqqında fikirlər səslənir". Alim bu qənaətə gəlir ki, inkişafın belə bir zamanında önləyici proqnozlar sistemini müəyyənləşdirmək üçün işlər görülməlidir. Milli elm infrastrukturunun formalaşması üçün dövlətə konkret konsepsiya təqdim edilməlidir. Bu, dünya elminin insanlara, elmə və təhsilə münasibətdə irəli sürdüyü standartlara cavab verən bir konsepsiya olmalıdır.

Azərbaycanın efir məkanında mövcud problemlər və vəzifələr barədə mülahizələrində akademik Ramiz Mehdiyev müstəqillik illərində ölkəmizdə KİV-in azad fəaliyyəti üçün hər cür şərait yaradıldığını, hüquqi bazanın olduğunu vurğulayır, milli-mənəvi dəyərlərimizin qorunmasında, azərbaycançılıq ideyasının təbliğində, Azərbaycan dilinin, mədəniyyətinin, ölkəmizlə bağlı tarixi həqiqətlərin yayılmasında radio və televiziyanın roluna diqqət çəkir. Onun fikrincə, bu gün televiziya kanallarımız milli-mənəvi dəyərlərin təbliği, ictimai əhəmiyyət kəsb edən məsələlərin müzakirəsi, vətənpərvərlik, uşaqların və yeniyetmələrin intellektual inkişafı və digər sahələr üzrə keyfiyyətli maarifləndirmə proqramları nümayiş etdirmək iqtidarındadır. Bununla yanaşı, müəllif efir məkanındakı problemləri və onların qarşısını almağın yollarını da göstərib.

# "İlahiyyatçı" qəzetinin növbəti buraxılışı çap olunub

Azərbaycan İlahiyyat İnstitutunun (AİI) "İlahiyyatçı" qəzetinin dekabr buraxılışı çap olunub.




Mətbu orqanın birinci səhifəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü ilə əlaqədar təbriki yer alıb.

Mətbu orqanın dekabr buraxılışında "Ulu Öndər Heydər Əliyev anılıb", "Ümummilli Liderin məzarını ziyarət", "Tələbələr Heydər məscidini ziyarət ediblər", "Heydər Əliyev: dəyərlərimizin xilaskarı" sənədli filminin nümayişi", "Səfir qonağımız oldu", "Tələbə seminarı", "650 min ağac əkilməsi aksiyasına qoşulduq", "Vikipediya" könüllüləri ilə görüş", "Noyabr ayının yekunlarına həsr olunmuş iclas", "Qurani-Kərimin üslub və ifadə tərzi", "Azərbaycan İlahiyyat İnstitutu şahmat turnirinin qalibi olub", "Tələbələr təşəkkürnamə və sertifikatla təltif edildilər", "Beynəlxalq Ərəb Dili Gününə həsr olunmuş seminar", "Həmrəyliyimiz: milli-dini birliyimiz", "Bakı Beynəlxalq Multikulturalizm Mərkəzini ziyarət", "Tələbə Elmi Cəmiyyətinin hesabatı", "Birinci kurs tələbələri dağ yəhudilərinin sinaqoqunda", "Ailə və cəmiyyət" mövzusunda xütbə", "İmtahan sessiyasına hazırlıqla bağlı iclas", "Respublika elmi konfransı", "Fərqlənənlər təltif edildilər", "Tələbələr katolik kilsəsini ziyarət ediblər", "Türkiyə universitetləri ilə əməkdaşlıq əlaqələri", "Azərbaycan kinoları nümayiş olunur", "Konfransın materialları çap olunub", "AİI-nin müəllimi beynəlxalq konfransda iştirak edib", "İnstitutumuzun dosenti xarici mətbuatda çıxış edib", "Bilik yarışı keçirilib" başlıqlı xəbərlər dərc olunub.

Qəzetin üçüncü səhifəsində AİI-nin rektoru Ceyhun Məmmədovun ilin yekunları ilə bağlı "AZƏRTAC"a müsahibəsi dərc olunub.

Qəzetin səkkizinci səhifəsi "İlahiyyatçı" qəzetinin fəaliyyətə başlamasının 1 illik yubileyinə həsr olunub.

Mətbu orqanın müxtəlif səhifələrində AİI müəllimlərinin və əməkdaşlarının "Dinlər nə üçün mövcuddur, yaxud doğrudanmı "dinin dövrü başa çatıb"?", "Təşəkkür və şükür mədəniyyəti", "Cəmiyyətdə və dində müəllim" başlıqlı yazılar yer alıb.

"İlahiyyatçı"nın növbəti səhifələrində AİI tələbələrinin "Dünyaya nə üçün gəldik?", "Münasibətlər", "Həmrəyliyimiz", "Azərbaycan deyəndə ayağa qalx"malıyıq...", "Xoşbəxtlik nədir?", "Cəmiyyətə ilahiyyatı bilən gənclər lazımdır", "Tusi yaradıcılığında əxlaqa dair əxz etdiklərim" başlıqlı məqalələri yer alıb.

Məlumat üçün bildirək ki, "İlahiyyatçı" qəzetinin nəşr olunmasında məqsəd institutun fəaliyyəti, həyata keçirdiyi layihələr barədə ictimaiyyəti məlumatlandırmaq, gənclərdə vətənpərvərlik ruhunu gücləndirmək, onların intellektual səviyyəsini və dünyagörüşünü zənginləşdirmək, ölkəmizdə dini maarifləndirmə işinə töhfə verməkdir.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# Azərbaycan ilə Bolqarıstan arasında hərbi əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub

Azərbaycan Respublikasının Müdafiə naziri, general-polkovnik Zakir Həsənov yanvarın 10-da Bolqarıstan Respublikasının ölkəmizdəki səfiri Nikolay Yankov ilə görüşüb.



Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan ilə Bolqarıstan arasında ikitərəfli hərbi əməkdaşlıq əlaqələrinin mövcud vəziyyəti barədə müzakirələr aparılıb, işbirliyinin genişləndirilməsinin vacibliyi vurğulanıb.

Regiondakı hərbi-siyasi vəziyyətə toxunan nazir Ermənistanın işğalçılıq siyasətinin davam etdiyini və danışıqların rəsmi Yerevan tərəfindən qəsdən uzadılmasının bölgədəki şəraitə mənfi təsir göstərdiyini vurğulayıb.

Diplomat Azərbaycan ilə bütün sahələrdə əməkdaşlıqda maraqlı olduqlarını bildirərək Bolqarıstanın Azərbaycanı dost ölkə hesab etdiyini vurğulayıb.

Görüşdə Azərbaycan ilə Bolqarıstan arasında hərbi əməkdaşlığın inkişaf perspektivləri, hərbi-texniki, hərbi təhsil sahələrində əlaqələrin genişləndirilməsi, qarşılıqlı səfərlərin təşkili, regional və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

# Rusiya-Azərbaycan münasibətlərinin dinamik inkişafı məmnunluq doğurur

Yanvarın 10-da Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva Rusiya Federasiyasının ölkəmizdəki səfiri Mixail Boçarnikov ilə görüşüb.

Ombudsman Aparatının mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Səbinə Əliyeva qurumun əsas fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verib, paytaxt və regionlarda keçirilən görüşlər çərçivəsində sakinlərin qəbul edildiyini, onların qaldırdıqları məsələlərin həlli üzrə müvafiq dövlət qurumları ilə birgə işlər görüldüyünü, işgəncələrin qarşısının alınması və uşaq hüquqları sahəsində 24 saat fasiləsiz işləyən "qaynar xət"lərə daxil olan müraciətlərlə bağlı operativ tədbirlər görüldüyünü, əldə edilən nəticələrin Müvəkkilin illik məruzələrində əks etdirildiyini bildirib.

Müvəkkil ölkə daxilində əcnəbi, vətəndaşlığı olmayan və sığınacaq axtaran şəxslərlə yanaşı, ölkədən gedən Azərbaycan vətəndaşlarının hüquqlarının təmini və bərpası məsələlərinin daim diqqətdə saxlanıldığını, bu məqsədlə xarici dövlətlərin, o cümlədən Rusiya Federasiyası və onun subyektlərinin ombudsmanları, habelə müvafiq diplomatik nümayəndəliklər ilə əməkdaşlığın möhkəmləndiyini vurğulayıb, birgə görülmüş işlər nəticəsində əldə edilən müsbət təcrübə barədə danışıb. O, bu istiqamətdə ictimai nəzarətin gücləndirilməsi, daha yüksək nəticələrin əldə edilməsi məqsədilə yerli icmaların və QHT-nin rolunun artırılmasının vacibliyini bildirib.

Ombudsman Rusiya ilə Azərbaycan arasında ikitərəfli strateji əməkdaşlığın bütün sahələrdə olduğu kimi, insan hüquqları sahəsində də uğurla inkişaf etdiyini diqqətə çatdırıb. Vurğulanıb ki, Rusiya Federasiyasının İnsan Hüquqları üzrə Müvəkkili ilə qurulan sıx əməkdaşlıq çərçivəsində Azərbaycan vətəndaşlarının Rusiya ərazisində, Rusiya vətəndaşlarının isə ölkəmizin ərazisində hüquq və azadlıqlarının təmin edilməsi, o cümlədən şəxslərin öz iradələri ilə tərk edə bilmədikləri yerlərdə saxlanılanların vəziyyətinin müntəzəm araşdırılması, yerlərdə birgə görüş keçirilməsi və məsləhətləşmələr aparılması, deportasiya, yaxud ekstradisiya olunan şəxslərə ombudsmanların səlahiyyətləri daxilində yardım göstərilməsi istiqamətində səmərəli fəaliyyət mexanizmi formalaşdırılıb. Bundan başqa, Azərbaycan Ombudsmanının Rusiya Federasiyasının İnsan Hüquqları üzrə Müvəkkilinə müraciətindən sonra "ailə birləşməsi" beynəlxalq prinsip və qanunvericilikdə nəzərdə tutulmuş inzibati xətaya görə məsuliyyəti yüngülləşdirən hallar nəzərə alınaraq, həmin ölkədə yaşayan azərbaycanlılar barəsində ölkə hüdudlarından məcburi kənara çıxarılma və girişə məhdudiyyət qoyulması haqqında bir neçə qərara yenidən baxılıb, həmin şəxslərin xeyrinə müvafiq qərarlar qəbul edilib. Eyni zamanda, Rusiyanın Azərbaycandakı səfirliyi ilə davam etdirilən əməkdaşlıq çərçivəsində ölkəmizin ərazisində qeyri-müəyyən vəziyyətdə yaşayan, xüsusilə uşaq və ahıl yaşlı Rusiya vətəndaşlarının sənədləşmə və digər problemlərinin həllinə nail olunub.

Səmimi qəbula görə təşəkkürünü bildirən səfir Mixail Boçarnikov görüşün səmərəli və qarşılıqlı faydalı əməkdaşlığın inkişafı baxımından mühüm əhəmiyyət kəsb etdiyini bildirib. Mixail Boçarnikov strateji tərəfdaşlıq xarakteri daşıyan və müxtəlif sahələri əhatə edən Rusiya-Azərbaycan münasibətlərinin dinamik inkişafının məmnunluq doğurduğunu ifadə edib. O, iki ölkənin prezidentləri, eyni zamanda, tanınmış şəxsləri arasında etimada əsaslanan dostluq münasibətlərinin Rusiya-Azərbaycan əlaqələrinin inkişafına xüsusi töhfə verdiyini diqqətə çatdırıb.

Sonda qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə olunub.

# Təyyarə qəzasında həlak olanların xatirəsinin yad edilməsi üçün Ukraynanın Azərbaycandakı səfirliyində başsağlığı kitabı açılıb

Ukrayna Beynəlxalq Hava Yollarına məxsus sərnişin təyyarəsinin Tehran yaxınlığında qəzaya uğraması nəticəsində həlak olanların xatirəsinin yad edilməsi üçün bu ölkənin Azərbaycandakı səfirliyində başsağlığı kitabı açılıb.

Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, Energetika naziri, Azərbaycan Respublikası Hökuməti və Ukrayna Hökuməti arasında İqtisadi Əməkdaşlıq məsələləri üzrə Birgə Hökumətlərarası Komissiyanın həmsədri Pərviz Şahbazov Ukraynanın ölkəmizdəki səfirliyinə gələrək Azərbaycan hökuməti adından başsağlığı verib.

Nazir başsağlığı kitabına ürək sözlərini yazıb: "Tehran şəhəri yaxınlığında Ukrayna Beynəlxalq Hava Yollarına məxsus sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı bizi olduqca kədərləndirdi. Bu faciə ilə əlaqədar Ukrayna hökuməti və xalqına, təyyarə qəzası qurbanlarının ailələrinə və yaxınlarına Azərbaycan hökuməti adından və şəxsən öz adımdan dərin hüznlə başsağlığı verirəm".

# Ədliyyə naziri Qusarda vətəndaşları qəbul edib

Azərbaycan Prezidenti İlham Əliyevin insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması ilə bağlı tapşırıqları Ədliyyə Nazirliyi tərəfindən daim diqqətdə saxlanılır, vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq nazirliyin rəhbərliyinin bölgələrdə mütəmadi səyyar qəbulları keçirilir.

Yanvarın 10-da Ədliyyə naziri Fikrət Məmmədov Qusar rayonu Heydər Əliyev Mərkəzində Qusar, Quba, Xaçmaz, Şabran, Siyəzən və Xızı rayonlarından olan vətəndaşları qəbul edib.

Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, qəbul zamanı hər bir vətəndaş diqqətlə dinlənilib. Ədliyyə fəaliyyəti ilə bağlı müraciətlərin bir qismi yerindəcə həllini tapıb. Qaldırılan digər məsələlər üzrə nazirliyin qəbulda iştirak edən aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

# Azərbaycan nümayəndə heyəti "Lozanna 2020"nin təntənəli açılış mərasimində iştirak edib

İsveçrənin Lozanna şəhərində Yeniyetmələrin Qış Olimpiya Oyunlarının təntənəli açılış mərasimi keçirilib.

AZƏRTAC Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) saytına istinadla xəbər verir ki, açılış mərasimində Azərbaycan nümayəndə heyəti də iştirak edib.

Yeniyetmələrin Qış Olimpiya Oyunlarına ilk dəfə qatılan Azərbaycan komandasını fiqurlu konkisürmə yarışlarında Yekaterina Ryabova təmsil edəcək. Y.Ryabova yanvarın 11-də və 13-də mübarizə aparacaq.

Azərbaycan nümayəndə heyətinin tərkibinə, həmçinin MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə, baş katibin müavini Azər Əliyev və Azərbaycan Qış İdman Növləri Federasiyasının vitse-prezidenti Rauf Xəlilov daxildir.

Yarış yanvarın 22-dək davam edəcək.

# Aİ-nin "Horizon 2020" proqramının saytında Azərbaycanın işğal olunmuş əraziləri ilə bağlı təxribat aradan qaldırılıb

Bir müddət əvvəl, Avropa İttifaqının (Aİ) "Horizon 2020" proqramının rəsmi internet səhifəsinin "ölkə profilləri" hissəsində yerləşdirilmiş xəritədə Azərbaycanın Ermənistan tərəfindən işğal olunan ərazilərinin "Nagorno-Karabakh Republic" adı altında ayrıca beynəlxalq subyekt kimi göstərildiyi, beləliklə, ölkəmizin ərazi bütövlüyü və suverenliyinə qarşı kobud və məkrli təxribatçı yanaşmanın nümayiş etdirildiyi müəyyən olunub. Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, bununla əlaqədar olaraq, Azərbaycan tərəfindən sözügedən təxribatın aradan qaldırılması məsələsi Aİ-nin "Horizon 2020" proqramının icraçı qurumunun diqqətinə çatdırılıb və təcili tədbirlər görülməsi tələb edilib.

Qeyd etmək istərdik ki, "Horizon 2020"nin internet səhifəsində yerləşdirilmiş yanlış "xəritə" qurum tərəfindən yığışdırılıb. Aİ nümayəndəsi sözügedən məsələnin aidiyyəti Baş Direktorluqla araşdırıldığını və yaranmış vəziyyətin sırf həmin saytın tərtibatında iştirak etmiş texniki heyətin diqqətsizliyi səbəbindən irəli gəldiyini qeyd edib. Bənzər səhvlərin gələcəkdə təkrarlanmaması üçün Aİ-nin Baş Direktorluqları arasında müvafiq xəbərdarlığın yayılmasının vacibliyi qarşı tərəfin diqqətinə çatdırılıb.

# Pakistanın mətbuatında Azərbaycanda keçiriləcək parlament seçkiləri ilə bağlı məqalə dərc olunub

Pakistanda nəşr edilən "National Herald Tribune", "The Every Day" qəzetlərində və bu mətbu orqanların internet səhifələrində Azərbaycanda keçiriləcək parlament seçkiləri ilə əlaqədar "Kütləvi islahatlar üçün strateji istiqamət" adlı məqalə dərc olunub.

AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycanda aparılan sosial-iqtisadi, siyasi və inzibati islahatlar çərçivəsində ötən il parlamentin buraxıldığı qeyd edilib.

Müəllif Azərbaycanın dünyada ən qədim demokratik dövlətlərdən biri olduğunu, Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) müstəqilliyini elan etdikdən sonra qadınların, milli azlıqların və etnik qrupların səsvermə hüququnu təmin etdiyini, müsəlman dünyasında ilk demokratik respublikanın məhz ölkəmizdə qurulduğunu diqqətə çatdırıb.

Yazıda Azərbaycanın bütün müasir demokratik institutlara malik olduğu, son illərdə ölkəmizdə iqtisadi və siyasi islahatların geniş vüsət aldığı qeyd edilib. Vurğulanıb ki, aparılan islahatlar ölkə iqtisadiyyatının şaxələndirilməsinə, yüksək iqtisadi göstəricilərin əldə edilməsinə, iqtisadi sərbəstliyə və regional əlaqələrin inkişafına gətirib çıxarıb.

Müəllif həmçinin Azərbaycanda aparılan kadr islahatlarına, o cümlədən gəncləşmə siyasətinə toxunub, gənclərin öz potensiallarını göstərə bilmələri üçün yaxşı fürsət yarandığını, aparılan islahatların fevralın 9-da keçiriləcək parlament seçkilərində gənclərin yeni ideya və mexanizmlərlə iştirak etməsinə stimul verəcəyini vurğulayıb.

Yazıda qeyd olunur ki, keçiriləcək parlament seçkiləri Konstitusiya və Seçki Məcəlləsi ilə beynəlxalq standartlara uyğun olaraq tənzimlənir. Mərkəzi Seçki Komissiyası və onun tabeliyindəki qurumlar vəzifə və funksiyalarında tamamilə azad, müstəqil və qərəzsizdir. Hər bir namizədin və siyasi partiyanın ölkədə ümumi şəffaflığı, azad və ədalətli seçkiləri dəstəkləyən bərabərlik və ədalət hüququ vardır.

# Ölkədə qazlaşdırmanın səviyyəsi 96 faizi ötür

## Hədəf ən çətin relyefli ərazilərə də qaz xətlərinin çəkilməsidir




*Əvvəli 1-ci səh.*

Dəniz səviyyəsindən 1500 metr hündürlükdə yerləşən, Babadağ və Niyaldağ silsilələri ilə əhatə olunmuş Lahıc qəsəbəsinin sakinləri də qazdan istifadə edirlər. İsmayıllı rayonunun bu xətt boyunca yerləşən digər kəndlərində də qazlaşdırma həyata keçirilib. İndi rayonun Qaraqaya, Gəndob, Namazgah və digər kəndləri də qaz alır. Bu, son illərdə ölkədə qazlaşdırma sahəsində əldə olunmuş mühüm nailiyyətlərə əyani misaldır.

Azərbaycanda qazlaşdırma işləri regionların 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrası çərçivəsində də davam etdirilir. Hazırda çətin relyefə malik ərazilərin qazlaşdırılması qarşıda duran əsas hədəflərdəndir.

Ölkədə qazlaşdırmanın səviyyəsi 96 faizə çatıb. Prezident İlham Əliyev hələ Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında demişdir: "Bu gün qazlaşdırmanın səviyyəsinə görə Azərbaycan dünyada lider ölkələrdəndir, qazlaşdırmanın səviyyəsi 95 faizə çatıb. Biz ən ucqar dağ kəndlərinə qaz xətləri çəkdik. Halbuki bu, iqtisadi cəhətdən səmərəsizdir. Biz Azərbaycanda qazın mövcud olan aşağı tarifi ilə o xərcləri heç vaxt qarşılaya bilmərik. Onu da bildirməliyəm ki, Azərbaycanda təbii qazın tarifləri dünya miqyasında ən aşağı səviyyələrdən biridir, bəzi qonşu ölkələrdən iki-üç dəfə aşağıdır. Qazın olmaması insanları narahat edən məsələ idi. İndi bizim təqribən 3-4 faiz yaşayış məntəqələrimiz var ki, orada qaz yoxdur. Biz o işləri də görəcəyik".

Odur ki, bu istiqamətdə işlər dayanmır. 2019-cu ildə regionlarda 61 yaşayış məntəqəsinin və 31 yeni yaşayış massivinin qazlaşdırılması nəzərdə tutulurdu. Dekabrın 28-də proqramın icrası tam yerinə yetirilib və sonuncu yaşayış məntəqəsi - Goranboy rayonunun Goran qəsəbəsinə qaz verilməsi təmin edilib.

Bakı şəhəri üzrə isə keçən il birinci mərhələdə 22 yeni yaşayış massivinin qazlaşdırılması nəzərdə tutulmuşdu. Qazlaşdırma proqramı 4607 fərdi evi əhatə edir. Həmin massivlərdən 6-da qazlaşdırma işləri tamamlanıb. Digər massivlərdə qazlaşdırma işləri bu ilin birinci rübündə yekunlaşacaq.

Qaradağ rayonu, Qobustan qəsəbəsi "1-ci massiv", "1-a massivi", "2-a massivi" və "1-ci təzə yurd" adlandırılan ərazilərdə 235, Sabunçu rayonunun Zabrat qəsəbəsinin "Dağüstü" adlandırılan ərazisindəki yeni massivdə 33 fərdi yaşayış evi qazlaşdırılıb. Ümumilikdə qazlaşdırma işlərində iki massivdə 19 min 307 metr uzunluğunda polad və polietilən borulardan istifadə edilib.

Çoxmərtəbəli binaların istismara qəbulu sahəsində də ciddi addımlar atılıb. Ötən ilin 11 ayında 340 binaya qaz verilişi icra olunub.

Qaz infrastrukturunun təzələnməsi və təkmilləşdirilməsi də diqqət mərkəzindədir. Bu il yüzlərlə qaz sayğacı yeniləri ilə əvəz ediləcək. 785 kilometr yeni qaz xətti əsaslı təmir olunacaq. 800 yeni qaz tənzimləyici, 800 siyirtmə quraşdırılacaq.

Ölkə üzrə əhali sektorunun qazlaşdırma səviyyəsinin 96 faizə çatması ardıcıl tədbirlərin nəticəsində mümkün olub. Xatırladaq ki, Azərbaycanda qazlaşdırmanın səviyyəsi 2010-cu il yanvarın 1-də 62,2 faiz təşkil edirdi. Həmin vaxtdan indiyədək bu göstərici 33,8 faiz artıb.

***Flora SADIQLI,***
***"Azərbaycan"***




# EKTİS aqrar sahənin iştirakçılarını bir araya toplayacaq vahid xidmət platformasıdır




"Subsidiyaların fermerlərə Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi (EKTİS) üzərindən verilməsi aqrar sahənin bütün iştirakçılarını bir platformaya toplamağa imkan verəcək". Bunu Aqrar Kredit və İnkişaf Agentliyinin (AKİA) sədri Mirzə Əliyev deyib.

O qeyd edib ki, www.eagro.az portalında həm fermerlər, həm də onlara xidmət göstərən toxum, gübrə, pestisid təchizatçıları, süni mayalama mütəxəssisləri, baytarlar qeydiyyatdan keçirlər: "Sistemdə onların təqdim etdikləri məhsul və xidmətlər, eləcə də qiymətlər yerləşdiriləcək. Fermerlər qiymətləri müqayisə edib, istədikləri məhsul və xidmətləri seçmək imkanı qazanacaqlar".

Subsidiya vəsaitləri "Fermer kartı"na köçürüldükdən sonra fermerlər ödənişləri posterminallar və ya onlayn qaydada (e-commerce) edəcəklər. Bu platforma kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən təchizatçıların təklif etdikləri qiymətləri nəzarətdə saxlamağa imkan verəcək. Həmçinin bu platforma təchizatçıların təklif etdikləri qiymətləri nəzərə alaraq subsidiya əmsallarının müəyyən olunmasına şərait yaradacaq. EKTİS təchizatçılar üçün online sifariş və satış platforması kimi də xidmət göstərəcək.

Qeyd edək ki, bu il yanvarın 1-dən etibarən "Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması" üzrə yeni qayda qüvvəyə minmişdir. Prezidentin 2019-cu il 27 iyun tarixli fərmanı ilə təsdiq edilimiş bu qaydaya əsasən, aqrar subsidiyalar fermerlərə EKTİS vasitəsilə veriləcək. Kənd təsərrüfatı sahəsində tətbiq edilən dəstək tədbirləri ilə bağlı yeni mexanizm bu sahədə hesabatlığın və şəffaflığın artmasına, büdcə vəsaitlərinin səmərəli istifadəsinin təmin edilməsinə, fermerlər üçün müraciətlərin sadələşdirilməsinə, elektronlaşdırılaraq asanlaşmasına və əlçatanlığına xidmət edir.

# Fermerlər subsidiyanı elektron kabinetlərindəki kalkulyatorla hesablaya biləcəklər

Yeni subsidiya qaydalarına əsasən, fermerlər 6 subsidiya növünü Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi (EKTİS) üzərindən ala biləcəklər.

Prezidentin 2019-cu il 27 iyun tarixli fərmanı ilə təsdiq edilmiş "Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması" qaydası fermerlərə dövlət dəstəyi olaraq tətbiq edilən əkin, məhsul, toxum, heyvan, arı və barama subsidiyalarının EKTİS üzərindən verilməsini nəzərdə tutur.

Bütün subsidiya növləri üzrə fermerlərə veriləcək vəsaitin məbləği artıq müəyyənləşdirilib. Yeni qaydaya uyğun olaraq, Aqrar Subsidiya Şurası yanvarın 15-dək subsidiya verilməli olan bitkiçilik məhsulları, onlara düşən subsidiyaların əmsal və məbləğlərini elan etməlidir. Elektron sistemə keçidin sürətlə təmin edilməsi və fermerlərə subsidiyaların vaxtında ödənilməsi üçün Aqrar Subsidiya Şurası 2020-ci ilin bitkilər və regionlara görə əkin, məhsul və toxum subsidiya əmsallarını, toxum və ting kvotalarını 2019-cu ilin sentyabrında elan etmişdir. Elektron şəxsi kabinetində subsidiya üçün müraciət dolduran hər bir fermer ona düşəcək subsidiyanı müraciəti təsdiqləmədən əvvəl kabinetdəki kalkulyatorla hesablaya biləcək.



Qeyd edək ki, hazırda EKTİS-də 450 000-dək fermer qeydiyyatdan keçib.

# Hacıqabulda 9 min tondan çox nar toplanıb

Hacıqabulda təsərrüfatın digər sahələri ilə yanaşı, bağçılığın inkişafına da xüsusi diqqət yetirilir.

Bunun sayəsində rayonda hər il yeni bağçılıq təsərrüfatları yaradılır, meyvə istehsalı artır. Təsərrüfatın bu sahəsi ilə məşğul olan fermerlər hər il meyvə bağlarından 100 tonlarla məhsul istehsal edərək bazarlara çıxarır və emal müəssisələrinə göndərirlər.

Rayon statistika idarəsindən AZƏRTAC-a bildiriblər ki, hazırda Hacıqabulda həyətyanı sahələrlə birlikdə 1559,6 hektar meyvə bağı var və ötən il bu bağlardan 14 min 708,1 ton məhsul tədarük olunub. Bağbanlar ən yüksək nəticəni nar bağlarından əldə ediblər. Onlar becərdikləri 1177 hektar nar sahəsindən 9 min 349 ton məhsul yığıblar. Tədarük olunan məhsulun demək olar ki, üçdəiki hissəsi Udulu kəndindəki nar bağlarından yığılıb.

# Halal zəhmətin bəhrəsi



Ardı-arası kəsilmədən telefon zəngləri gəlirdi. Hər kəs onu təbrik edir, hal-əhval tutur, daha böyük uğurlar arzulayırdı. O da göstərilən diqqətə görə minnətdarlığını, təşəkkürünü bildirirdi.

Bəli, cari ilin yekun nəticələrinə görə, Prezident İlham Əliyev 25 dekabr 2019-cu il tarixli sərəncamı ilə bir qrup kənd təsərrüfatı işçisini yüksək mükafatlarla təltif etmişdir. Onların sırasında fermer, Biləsuvar rayonundakı "P-Aqro" MMC-nin direktoru Şakir Soltanov da var. O, fermer kimi pambıqçılıq sahəsindəki fəaliyyətinə görə Birinci dərəcəli "Əmək" ordeninə layiq görülmüşdür.

Ş.Soltanovu çoxdan tanıyıram. Canı-qanı ilə torpağa bağlı adamdır. Əvvəllər sahələrində olanda, habelə təsərrüfat məsələləri ilə bağlı söhbətlərimiz zamanı bunu yəqin etmişdim. Bacarıqlı, işgüzar aqronom olduğunu görüb onu yüksək maaşla Bakıda yaşayıb işləməyə çağırsalar da, razılıq verməmişdir. Ürəyində özü-özünə demişdir: "Doğulduğum, boya-başa çatdığım Əsgərabad kəndini, elimi-obamı qoyub hara gedirəm?! Axı mən aqronomam, torpaqla ünsiyyət bağlamaq ancaq kənd yerində mümkündür". Gənc yaşlarından ürəyində bəslədiyi dürlü-dürlü arzularını bir-bir xəyalından, düşüncəsinin süzgəcindən keçirərək belə qərar vermişdir.

Atalar "Niyyətin hara, mənzilin ora", - deyiblər. Ali təhsilli aqronom kimi kəndlərindəki kolxozda əvvəlcə aqronom, sonra baş aqronom olur. Sovetlər birliyi dağılandan, kolxozlar ləğv olunandan sonra yenə torpaqdan əl çəkmir, əksinə, ona daha çox bağlanır. İxtisasına uyğun olan müxtəlif vəzifələrdə çalışsa da, pay torpağını həvəslə əkib-becərir, yüksək məhsul almağa səy göstərir, torpağa nümunəvi qulluq, aqrotexniki tədbirləri vaxtlı-vaxtında yerinə yetirmək sayəsində yüksək nəticələrə nail olur.

Aylar, illər keçdikcə bacarıqlı fermer kimi ad-san qazanır. Çox adam təcrübəli fermer, bilikli aqronom kimi məsləhət almağa onun yanına gəlir. Bu keyfiyyətlərini nəzərə alaraq 2017-ci ilin mart ayında yaranan "Biləsuvar kənd təsərrüfatı" MMC-nin direktoru vəzifəsinə irəli çəkilir. Bu işdə aqronomluğu ilə yanaşı, təşkilatçılıq qabiliyyətinə malik olduğunu da göstərir. Boş bir sahədə qısa müddət ərzində müasir tələblərə cavab verən pambıq qəbulu məntəqəsinin tikilməsinə böyük əmək sərf edir. 2018-ci ilin iyul ayında bu müəssisənin mülkiyyəti yeni yaradılan "P-Aqro" MMC-yə verilir. Ş.Soltanov MMC-nin direktoru kimi işə daha məsuliyyətlə yanaşır. Ancaq fermer olduğunu bir an belə unutmur. Deyir ki, vəzifə gəldi-gedərdi: "Aqronomam, fermerəm. Halal zəhmətlə qazanılan daha şirindir".

O, keçən il 33,9 hektar sahədə pambıq əkib-becərib. Nəticə əladır. 198,6 ton "ağ qızıl" götürüb. Bu da hər hektardan 58,5 sentner məhsul deməkdir. Məhsulun 158,8 tonunu, 80 faizini maşınla yığıb.

Bu günlər onu görüb təbrik etdik. Öyrəndik ki, əkdiyi pambığın vegetasiya dövründə 6 dəfə kompleks becərmə həyata keçirib. İnişil payızda pambıq əkəcəyi sahələrdə şum altına kifayət qədər peyin tökdürüb, əkini ammofos gübrəsi ilə edib, becərmə dövründə hər hektara 300 kiloqram azot verməklə yanaşı, 3 dəfə kökdənkənar yemləmə aparıb.

Rəhbərlik etdiyi "P-Aqro" MMC də ili uğurla başa vurmuşdur. İlin əvvəlində MMC ilə müqavilə bağlayan 319 fermer və torpaq mülkiyyətçisi də bol məhsul yetişdirmişdir. 2 min 7 hektardan 7 min 16 ton pambıq əldə olunmuşdur ki, bu da hər hektardan 35 sentner deməkdir. Ümumi məhsulun 83 faizi maşınlarla yığılmışdır. Becərmə dövründə mülkiyyətçilərə 540 ton azot, 163 ton ammofos gübrəsi, 701 min manat verilmişdir.

Fermer Ş.Soltanov dedi ki, bütün bunlar ölkə rəhbəri İlham Əliyevin kənd təsərrüfatının inkişafına göstərdiyi diqqət və qayğının nəticəsidir. Keçən il dekabrın 19-da Prezidentin yanında pambıq mövsümünün yekunları və 2020-ci ildə görüləcək tədbirlərlə bağlı müşavirənin materiallarını qəzetdən oxudum. Dövlət başçısı Ulu Öndər Heydər Əliyevin respublikaya rəhbərliyinin birinci dövründə pambıqçılığın inkişaf etdirilməsindən, 1981-ci ildə rekord miqdarda "ağ qızıl" yetişdirildiyindən, yəni hər hektardan 35,9 sentner məhsul əldə edildiyindən, sonralar bu sahənin tənəzzülə uğradığından, onu dirçəltmək üçün 2017-2020-ci illəri əhatə edən Dövlət Proqramının qəbul edilməsindən və son dörd ildə pambıqçılıqda əldə olunan uğurlu nəticələrdən ətraflı danışmışdır. Demişdir ki, dövlətin dəstəyi ilə son 3 il ərzində 15 min 700 texnika alınmış, Amerikanın qabaqcıl şirkəti olan "İohn Dcere"in istehsal etdiyi məhsuldar kombaynlar alınıb respublikaya gətirilmişdir. Bunun nəticəsində ölkəmizdə istehsal olunan 294 min ton pambığın 87 faizi maşınlarla yığılmışdır.

Pambıqçılıqda sürətli inkişafın ən mühüm amillərindən biri qiymətin artırılması olmuşdur. Bu barədə ölkə rəhbəri müşavirədə ətraflı danışmışdır. 2016-cı ildən pambığın hər kiloqramına görə dövlət tərəfindən 10 qəpik subsidiya verilməyə başlanmışdır. 2015-ci ildə pambığın satın alınma qiyməti 41, 2016-2017-ci illərdə 50 qəpik idisə, 2018-ci ildə 65 qəpiyə çatdırılmışdır. Pestisidlər də güzəştlə verilməyə başlanmışdır. Hər hektara güzəştlər 10 manatdan 50, gübrələr üçün güzəştlər 100 manatdan 150 manata qaldırılmışdır.

Pambıqçılıq kənd yerində yaşayan əhalinin işlə təmin olunmasına şərait yaradır. Prezident demişdir ki, hazırda pambıq əkən 20 rayonda 200 minə yaxın kəndli bu işlə məşğuldur. Digər tərəfdən isə pambıq istehsalçısı yetişdirdiyi məhsulu satmaqda heç bir çətinliklə qarşılaşmır, yığdığı "ağ qızıl"ı müqavilə bağladığı tədarük təşkilatlarına təhvil verib, uzağı iki gün ərzində kart vasitəsilə bankomatdan pulunu çıxara bilir.

Fermer Ş.Soltanov xam pambığın emal olunmasından danışarkən bu işin də dövlət başçısının nəzarətində olduğunu dedi: "Çox sağ olsun, Prezident bu məsələni də prioritet məsələ hesab edir. Əzab-əziyyətlə yetişdirdiyimiz pambığı nəyə görə mahlıc və ya iplik şəklində satmalıyıq? İlk növbədə sahibkarlar bu barədə yaxşı-yaxşı fikirləşməlidirlər. Onlar istədikləri ölkədən mütərəqqi, ən yeni toxuculuq avadanlıqlarını alıb gətirə bilərlər. Yaradılan fabriklərdə yüzlərlə, minlərlə iş yeri açılar. Belə olduqda biz özümüz xarici ölkələrə hazır məhsullar sata bilərik". Sonra sözünə davam edərək dedi ki, təxminən bir ay bundan əvvəl paltar almaq üçün rayonumuzdakı dükanlardan birinə girdim: "İstədiyim köynəyi əlimə götürüb orasına-burasına baxdım, satıcıdan harada istehsal olunduğunu soruşdum. "Özbəkistan malıdır" dedi. Öz-özümə sual verdim: "Bəs bu qədər pambığımız ola-ola biz niyə belə mallar istehsal etmirik?" Prezident bu məsələyə də toxundu, pambıq zavodlarının ən müasir texnologiyalar tətbiq edilməklə tikilməsini qarşıya məqsəd qoydu".

Sonra sözlərinə bunları əlavə etdi: "İstehsal etdiyimiz məhsulu böyük zəhmətlə, xərclə Saatlı rayonundakı pambıqtəmizləmə zavoduna daşımalı oluruq. Keçən ilin ortalarında İqtisadiyyat Nazirliyinin nümayəndələri Biləsuvara gəlib burada pambıq emalı müəssisəsinin tikilməsi üçün yer müəyyənləşdirdilər. Baş tutsa, yaxşı təşəbbüsdür. Zavodun tikilməsi, eyni zamanda yeni iş yerlərinin açılmasına da imkan verir".

Biləsuvarda torpağa bağlı insanlar çoxdur. Buna görə də əkinçilikdən yaxşı başı çıxan, torpağın "dilini bilən" fermerlər, torpaq mülkiyyətçiləri hər il yüksək nəticələr əldə edirlər. Sosialist Əməyi qəhrəmanları Qızqayıt Həsənovanın, Ərəstun Məmmədovun, Yunsur Hacıyevin və başqalarının yolunu davam etdirən biləsuvarlı zəhmət adamları indi də var. Belələrindən biri haqqında bəhs etdiyimiz Şakir Soltanovdur. Bu gün o, cari ilin bol məhsulunun təməlini qoyur. Şum qaldırır, suvarma kanalları çəkdirir, toxum, gübrə tədarük edir, digər işləri həyata keçirir.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# Gədəbəydə arıçıların sayı ildən-ilə artır



Təbii iqlimi, zəngin bitki örtüyü ilə əhatə olunan Gədəbəy rayonunda arıçılığın inkişaf etdirilməsi üçün hər cür şərait var. Bundan istifadə edən rayon sakinləri son vaxtlar arıçılığın inkişaf etdirilməsinə daha çox maraq göstərirlər.

Hazırda rayonda 9 min 426 arı ailəsi var. Dövlət tərəfindən verilən subsidiya bu sahənin inkişaf etdirilməsinə stimul verib. Nəticədə rayonda bal istehsalında nəzərə çarpacaq dərəcədə artım qeydə alınmışdır. Ölkə Prezidentinin sərəncamına uyğun olaraq arıçılığın inkişafının stimullaşdırılması məqsədilə hər arı ailəsinə görə təsərrüfat sahiblərinə 94 min 260 manat vəsait onların bank hesablarına köçürülmüşdür. Aprel ayında qeydiyyata alma işləri yenidən aparılacaq və yeni subsidiyaların verilməsinə başlanacaqdır.

Gədəbəy Rayonu Dövlət Aqrar İnkişaf Mərkəzində bildirdilər ki, keçən il rayonda 80 tona yaxın bal istehsal olunub. Arıçılar Oruc Rzayev, Elmar Əsgərov, Zahir Alıyev, Bayram Əsgərov və başqaları Bakıda keçirilən yarmarkada 1500 kiloqram bal, 5 kiloqrama yaxın vələmumu, 8 kiloqrama yaxın çiçək tozu satmışlar.

Rayonda bu gəlirli sahənin sirlərini dərindən bilən çoxlu arıçı var. Onlar bilik və bacarıqlarını bu işə yenicə başlayan rayon sakinlərinə də həvəslə öyrədirlər.

Qoşabulaq kəndinin sakini Hafis Əhmədov da uzun illərdir ki, arıçılıqla məşğul olur. Dövlətin göstərdiyi qayğıdan bəhrələnən arıçı inişil 50 arı ailəsinə baxırdısa, keçən il 60-a çatdırıb. 2019-cu ildə bu arı ailələrindən 500 kiloqramdan çox bal əldə edib. Hafiz bu il də arı ailələrinin sayını artırmaq fikrindədir. Söhbət zamanı dedi ki, çox gəlirli sahədir. Ancaq gərək arının "dilini" biləsən. Onda çətinlik olmur.

Dəyirmandağ kəndinin sakini Asəf Nağıyev arıçılıqla dədə-babadan məşğul olduqlarını dedi. Hazırda 42 arı ailəsi var. Keçən il 400 kiloqramdan çox bal götürmüşdür. İstehsal etdiyi balın keyfiyyəti yüksək olduğundan onun satışında heç bir problem yaranmamışdır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Hökumətin yeni qərarı fermerlərin işini xeyli asanlaşdırır



Nazirlər Kabinetinin 518 nömrəli qərarı Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanı ilə verilmiş tapşırıqların icrasını təmin edir. Həmin qərarla edilmiş dəyişikliklər subsidiyaların verilməsində sabitliyi, davamlığı və sadəliyi nəzərdə tutur.

Belə ki, əvvəlki qaydaya əsasən, hər bir kənd təsərrüfatı məhsulu üçün ayrılıqda subsidiya verilirdi və hər bir subsidiya üçün zərurət yarandıqca birdəfəlik sərəncamlar imzalanırdı. Məsələn, bitkiçilik üzrə sərəncam imzalanır və fermerə hər hektara görə 100 manat civarında birdəfəlik subsidiya ödənilirdi. Eynilə heyvandarlıq, arıçılıq və balıqçılıq təsərrüfatları üçün də ayrıca sərəncamlar imzalanırdı. Tütünçülük və pambıqçılıq isə ümumiyyətlə, bu siyahıya aid deyildi.

İndi isə vahid qayda təsdiq edildikdən sonra hər sahə üzrə ayrıca sərəncam imzalanması ilə yanaşı, vaxtaşırı yeni sərəncam imzalanması zərurəti də aradan qalxır. Bundan əlavə, tütün və pambıqçılıq da bu siyahıya daxil edilir. Başqa sözlə, hər sahə üzrə ayrılıqda və hər dəfə təkrar sərəncamlar imzalanmasına ehtiyac qalmır. Nəticədə birdəfəlik olaraq bütün sahələri əhatə edən mexanizm qurulur, normayaratmada təkrarçılıq aradan qaldırılır və mütəmadi xarakterli vahid sistem yaradılır.

Qərara əsasən, plastik kartların verilməsində də yeni, daha sabit və daha uzunmüddətli bir mexanizm formalaşdırılır. İndiyədək subsidiyaların ödənildiyi üçillik plastik kartlar yalnız bitkiçilik, o cümlədən tütün və pambıq istehsalçılarına verilirdi. Heyvandarlıq sahəsində çalışanlar isə üçillik kartlarla təmin edilmirdilər. Yeni vahid qayda bitkiçiliklə yanaşı, heyvandarlıqla məşğul olan fermerlərə də subsidiyaların ödənilməsi üçün üçillik plastik kartların verilməsini nəzərdə tutur. Bu heyvandarlıq sahəsində çalışanlara dövlət dəstəyinin sabitliyini və sadəliyini təmin edir.

Üçüncü mühüm məqam isə ondan ibarətdir ki, buna qədər fermerlər plastik kartları almaq üçün hər birinə ayrılıqda olmaqla Kənd Təsərrüfatı Nazirliyinə və Maliyyə Nazirliyinə, yəni iki instansiyaya müraciət edirdilər. İndi isə yalnız bir instansiyaya - Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinə müraciət edəcəklər. Nəticə etibarilə vaxta qənaət edilir, əlavə kargüzarlığa və xərclərə ehtiyac olmur.

Bir sözlə, yeni vahid qayda:

- pambıqçılıq, tütünçülük və heyvandarlıq sahəsində çalışanlara dövlət dəstəyinin mütəmadi mexanizmlərini yaradır;
- kənd təsərrüfatına dövlət dəstəyini gücləndirir;
- sabit və proqnozlaşdırılması asan olan dövlət dəstəyi mexanizmini formalaşdırır;
- subsidiya prosesində sənədləşməni sadələşdirir;
- fermerlər üçün 3 il müddətinə öz təsərrüfatları ilə bağlı aydın təsəvvür edilən biznes plan qurmaq imkanı yaradır;
- bütün bunlar kənd təsərrüfatı məhsullarının istehsalı sahəsində sərmayə riskini azaldır;
- dövlətin 3 il müddətində zəmanətli dəstəyi ilə əlavə investisiya cəlb edilməsi üçün əlverişli mühit formalaşdırır.

# İsmayıllının üzüm bağlarında quru budama aparılır



Bağların qış becərilməsi gələcək yüksək məhsul üçün mühüm şərtdir və bu məqsədlə hazırda İsmayıllı rayonunun üzüm plantasiyalarında cərgə araları şumlanır, quru budama aparılır.

Rayon Dövlət Aqrar İnkişaf Mərkəzindən AZƏRTAC-a bildirilib ki, artıq mövcud bağların 700 hektarından çox sahəsində üzümçülükdə mühüm aqrotexniki tədbir olan quru budama işləri başa çatdırılıb. Məhsulun əsasını təşkil edən bar zoğlarının seçilib-saxlanılmasında təcrübəli üzümçülərlə yanaşı, mütəxəssis tövsiyələrindən də istifadə olunur.

Rayonun üzüm plantasiyalarında quru budamanın mart ayının əvvəlinədək yekunlaşdırılması nəzərdə tutulub.

Qeyd edək ki, son illər rayonda üzümçülüyün inkişafı istiqamətində ardıcıl tədbirlər görülür. Hazırda 1123 hektar üzüm bağı var ki, bunun 1012,9 hektarı bar verəndir. Yenicə yola saldığımız 2019-cu ildə bağlardan 4436 ton məhsul yığılıb ki, bu da əvvəlki illə müqayisədə 312 ton çoxdur.

# Qubada İngiltərə mənşəli çiyələk sortlarının yetişdirilməsinə başlanılıb

Qubada yerləşən Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunda İngiltərə şirkəti ilə əməkdaşlıq çərçivəsində giləmeyvə bitkiləri üzrə yeni layihənin icrasına başlanılıb. Layihənin əsas məqsədi ölkəmizdə İngiltərə mənşəli çiyələk sortlarının yetişdirilməsi və yeni texnologiyanın tətbiqindən ibarətdir.

AZƏRTAC xəbər verir ki, institut tərəfindən çiyələk bitkisinin 5 sortu ölkəmizə introduksiya edilib və onlar üzərində tədqiqat işləri aparılır. Hazırda "Kupid", "Fenella", "Kristin", "Flomenko" və "Florens" sortları mütəxəssislər tərəfindən müşahidə olunur.

Yeni texnologiyaya əsasən çiyələk bitkisi tirə üsulu ilə əkilir. Bitkilər tirə üzərində 0,8x0,35 metr sxemində əkilir və damla suvama sistemindən istifadə olunur. Tirələr təxminən 10-15 santimetr hündürlükdə olur. Çiyələk bitkisinin bu üsulla əkilməsi torpağın rütubətini artırır və qış şaxtaları zamanı bitkinin köklərinin donmasının qarşısını alır.

Elm xadimləri

# Qürur duyduğumuz alim və müəllim

Ölkəmizdə yüksək ixtisaslı tibb kadrlarının hazırlanmasında xidmətləri olan elm və təhsil xadimlərindən biri də Azərbaycan Tibb Universitetinin İnsan anatomiyası və tibbi terminologiya kafedrasının müdiri, Əməkdar elm xadimi, professor Vaqif Bilas oğlu Şadlinskidir. V.Şadlinski 1940-cı il yanvarın 24-də Qərbi Azərbaycanın Vedibasar bölgəsində xalq qəhrəmanı Abasqulu bəy Şadlinskinin nəslində - Bilas Şadlinskinin ailəsində dünyaya göz açmışdır.



O, 8 yaşında olarkən ailə 1948-ci il Stalin deportasiyası nəticəsində məcburən Azərbaycana köçürülmüş, Şəmkir rayonunun Leninkənd (indi Çinarlı) qəsəbəsində məskunlaşmışdır. Müəllim ailəsində böyüyən Vaqif Şadlinski qəsəbədəki beynəlmiləl orta məktəbi yüksək qiymətlərlə bitirmişdir.

ATİ-ni 1968-ci ildə fərqlənmə diplomu ilə bitirən Vaqif Şadlinskini tələbəlik illərindən tanıyıram. Mədəni-kütləvi tədbirlərin təşkilatçısı və fəal iştirakçısı olan Vaqif Şadlinski 1964-cü ildə 3 saylı tələbə yataqxanası üzrə tələbə şurasının sədri, bundan bir il sonra institut Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri seçilmişdi. Üzərinə düşən vəzifənin öhdəsindən bacarıqla gəlirdi. Bu əzmkarlığın nəticəsində o, 1967-ci ildə institut partiya komitəsi bürosunun, habelə Respublika Tibb İşçiləri Həmkarlar İttifaqı Komitəsi plenumunun üzvü, Ümumittifaq Həmkarlar İttifaqı Komitəsi İşçilərinin X qurultayına nümayəndə seçilmişdi. V.Şadlinski institutu bitirdikdən sonra ATİ-nin Elmi Şurasının qərarı ilə Terapevtik stomatologiya kafedrasında baş laborant vəzifəsində çalışmışdır. O, 1970-ci ilin iyun ayından ATİ-nin İnsan anatomiyası kafedrasına baş laborant vəzifəsinə keçirilmiş, həmin ilin avqust ayında isə kafedranın assistenti vəzifəsinə seçilmişdir. Elmi-pedaqoji fəaliyyətini həmişəlik bu kafedraya bağlayan Vaqif Şadlinski kafedranın assistenti vəzifəsindən kafedra müdiri, professor vəzifəsinə qədər yüksəlmişdir.

